Gülayə

# Yuxunu sulara söylə...



"ADİLOĞLU"
Bакı - 2012

Redaktor: ***Sərvaz Hüseynoğlu***

Rəssam: ***Sürəyya***

Korrektor: ***S. Əsgərli***

Gülayə
"Yuxunu sulara söylə..." şeirlər.
"ADİLOĞLU" nəşriyyatı, Bakı 2012. 156 səh.

*Kitabda çağdaş poeziyamızın tanınmış nümayəndəsi Gülayənin həyat və zaman, ilahi məhəbbət haqqında yazdığı şeirlər yer alıb. Bu, müəllifin oxucularla 5-ci görüşüdür.*

4722110018 / 121 - 2012 qrifli nəşr

© "ADİLOĞLU", 2012

# YOLUN ÇƏTİN, LAKİN ŞƏRƏFLİDİR

***Açıq qoy yuxunun qapılarını,***
***Alın yazım kimi cizgilənim mən.***
***Əksim qaçırmasın yuxularını,***
***Mürgülü gözündə güzgülənim mən.***

Açıq qoy yuxunun qapılarını... Gülayə xanım, adınız kimi zərif, çox zərif hisslər, duyğular sahibisiniz. Ən əsası da odur ki, siz bu hissləri, duyğuları şeir dili ilə deyə bilirsiniz. Misralarınız büdrəmir, bulaq suyunun axışı kimi sakit, ürəklidir. Ürəkdən ürəklərə kimi axıb gəlir. Bu yazılar elə bil ki, yüzillərin mahir aşıqlarının yolgöstərənliyi, ifası fonunda yazılıb. Başqa bir şeirdən:

***Danışma, danışma yuxunu mənə,***
***Ağzından yel alsın; yellər aparsın.***
***Danışma, danışma yuxunu yenə,***
***Alsın bəd yuxunu sellər aparsın,***
***Yuxunu sulara söylə, sevdiyim.***

Bu yazılar qoşma deyil. Qoşmadan bəri elə usta addımdır ki, həm qoşmadasan, həm

də qoşmadan bəridəsən. Şeirlərinin havası, havacatı qoşmadandır, quruluşu, fikirlərin tutumu, hərdən ifadə tərzi lap yanımızdadı, bugünkü gəncliklə yanaşıdı. Bu kitabın hər bir oxucusu səni öz doğması kimi qəbul edəcək. Çünki gəldiyiniz ünvan birdi, getdiyiniz cığırlar bir olmasa da, bir səmtədir, doğmadır. Görünən şəhərə nə bələdçi deyiblər. Kitab qarşımızdadır. Kitabı oxuduqca danışmaq, yazmaq həvəsim artır, şeirlərdən həzz alıram. Bu həzzi özümə qısqanıram, oxucunu ləngitmək, bu ləzzətdən məhrum etmək istəmirəm. Oxuyun. Bu beton, şüşə, daş, dəmir, çalğı içindən keçən dövrün, dünyanın qoynunda hələ də kövrək, bənövşə kimi boynubükük, saf bir məhəbbətin yaşadığını, bulaq kimi daşı dəlib, ordan dünyaya aydınlıq, zəriflik apardığını görəcəksiniz. Oxuyun. İşin avand olsun, Gülayə xanım! Yolun çətindir, lakin şərəflidir, hələ yıxılmamışdan ayağa qalxacağını düşün. Uğurlar olsun! Oxucun -

***Fikrət Qoca***
*Xalq şairi, Azərbaycan Yazıçılar*
*Birliyinin birinci katibi*

# ƏNƏNƏYƏ SADİQLİK

Gülayənin şeirlərini içdən gələn nostolji duyğu, diqqət və qayğı, eyni zamanda böyük bir zövqlə oxudum. Onları ürəyimin səsi olaraq gördüm. Ümumtürk poeziyası ilə müqayisədə bu şeirlər mənə arzu edilən zənginliyi və mənəvi yaxınlığı, oxşarlığı ilə doğma gəldi. Bu şeirlərin maraqlı cəhəti orasındadır ki, oxuduqca insan qəlbində ötən yaşantıları birər-birər yenidən oyadır və arxasınca yeni, təptəzə bir şeir ovqatı çəkib gətirir. Adam uzun müddət özünü bu auranın imisti qoynunda hiss edir.

Inanıram ki, Türkiyə - Azərbaycan dostluq münasibətlərinin genişlənməsində Gülayə kimi şairlərin böyük xidmətləri olacaqdır. Onun yeni şeir kitablarını böyük bir ümid və həsrətlə gözləyirəm.

***Yavuz Bülənt Bakilər***
*Görkəmli türk şairi*

***

...Gülayənin yaradıcılığı hər birimizə tanışdır. O,yazıb-yaratdığı şeirləri ilə Türkiyədə keçirilən şeir yarışmasında birincilik qazanmaqla bərabər, həm də Cümhuriyyət qızıl medalına layiq görülmüşdür. Onun yaradıcılığının əsasını klassik şeirimizin və qədim türk folklorunun zəngin ənənələri təşkil edir.

*Millət vəkili, Atatürk Mərkəzinin rəhbəri,*
*professor* ***Nizami Cəfərovun***
*Gülayənin Türkiyədə keçirilən uluslararası*
*şeir müsabiqəsində I yeri tutaraq aldığı qızıl*
*medalın təqdimatındakı çıxışından*

***

"Göylərdə fələkləri yandıran" bir güc var Gülayə məhəbbətinin odunda. Gülayənin poeziyası "bəlayi-eşq ilə aşina" olanların, məhəbbəti ulu Tanrının kəraməti hesab edənlərin, məhəbbətin odunda yanaraq qaranlıq qəlblərə işıq salanların, iztirab ilə həmsöhbət olmağı kamillik yolu kimi başa düşənlərin, Səməndər quşu kimi məhəbbət yolunda ölübdirilənlərin könül çırpıntılarıdır. Həqiqi sevginin az qala tarixə kömüldüyü bir zəmanədə ali duyğuların bütün maddi, dünyəvi maraqlardan yüksəkdə tutan bu poeziya mənəvi cəhətdən sağlam cəmiyyətin ehtiyacıdır. Gülayənin məhəbbət mövzulu şeirlərinin hər biri bir nəğmədir. Bu nəğmələr zamanı zamanla, nəsilləri nəsillərlə bağlayan könül bağlarıdır. Bu nəğmələr sevgi adlanan əsrarəngiz duyğuların, vüsal adlı səmavi nemətin iztirab adlı ilahi həyəcanın nəğmələridir. Bu melodiyalar məhəbbətin, yerin, göyün, ilahi qüdrətin nəfəsi olduğunu qulağımıza pıçıldayır.

Ən ali varlığı - Allahı dərk etməyin də ən doğru yolu etiqaddır. Etiqad isə ruhun mayasıdır. Buna görə də "Yuxunu sulara söylə" kitabındakı şeirlərdə ruh materiyanı üstələyir. Ruh insanda İlahi qüdrətin qığılcımı kimi təqdim edilir.

***Allahşükür Qurbanov***
*Fəlsəfə doktoru*

# AÇIQ QOY YUXUNUN QAPILARINI



# AÇIQ QOY YUXUNUN QAPILARINI

Açıq qoy yuxunun qapılarını,
Sirli səmalardan seyrə gəlim mən.
Yozacaq yuxunu yuxu yozanlar,
Hər zaman yuxuna xeyrə gəlim mən.

Açıq qoy yuxunun qapılarını,
Mənim bəxtim kimi kilidlənməsin.
Gəlim ünvanına səssiz-səmirsiz,
Yuxun gözlərində çiliklənməsin.

Açıq qoy yuxunun qapılarını,
Alın yazım kimi cizgilənim mən.
Əksim qaçırmasın yuxularını,
Mürgülü gözündə güzgülənim mən.

Açıq qoy yuxunun qapılarını,
Bu yeni yazıya ayə gəlim mən.
Yandır taleyimin işıqlarını,
Sən eşqin sultanı!.. sayə gəlim mən.

Açıq qoy yuxunun qapılarını,
Qaranlıq gözümdə göyərçin olsun.
Açsın çiynimizdə qanadlarını,
Gördüyün yuxular görüm çin olsun.

Açiq qoy yuxunun qapılarını,
Al məni sevdamın, al, baxışından.
Nə sən bir söz soruş, nə mən danışım,
Asılaq sükutun lal baxışından.

Açıq qoy yuxunun qapılarını,
Göylər gizlədibdi dan köynəyini.
Qaranlıq gecələr üşüdər səni,
Geydirim əyninə can köynəyini.

Açıq qoy yuxunun qapılarını,
Bir gəzək dünyanı biz başdan-başa.
Dünyanın üzünə çəkilək, qalsın
Eşqin göylərində rəsmimiz qoşa.

Açıq qoy yuxunun qapılarını,
Gerçəyə cala sən yalan ömrümü.
Mənim səndən başqa kimim var axı,
Sənə qurban verim qalan ömrümü.

Açıq qoy yuxunun qapılarını,
Köksümdə dəfn eylə, bük ahımızı.
Yerdə yerim yoxdu ayaq qoymağa,
Qoy göylər bağlasın nigahımızı.

# MƏNƏ ƏLİFBANI ÖYRƏT YENİDƏN

Mənə əlifbanı öyrət yenidən,
Məhəbbət elmini öyrənim, müəllim.
Dəftər-kitabımı yığım çantama,
Yenidən birinci sinifə gəlim.

Mənə əlifbanı öyrət yenidən,
Bizim təmənnamız deyim nə olsun;
Atəşi sən gətir, ürəyi də mən,
Birinci dərsimiz sevgidən olsun.

Mənə əlifbanı öyrət yenidən,
Birinci sətirdən birinci yazım.
Adınla açılsın qoy birinci vərəq,
Adınla bağlansın birinci yazım.

Mənə əlifbanı öyrət yenidən,
Gəl, alın yazımı sən yaz əksinə.
Taleyin eşq adlı səhnəsində biz
Tamaşa eyləyək ruhun rəqsinə.

Mənə əlifbanı öyrət yenidən,
Bir kərə bilmədim keçdim yanından.
Oxuya bilmədim, yaza bilmədim,
Kəsildim mən həyat imtahanından.

Mənə əlifbanı öyrət yenidən,
Sükutun dilində dindir təbimi.
Əlim titrəyəndə əllərimdən tut,
Yenə dağıtmayım mürəkkəbimi.

Mənə əlifbanı öyrət yenidən,
Könlümün səsində gəziş, «Şur» eylə.
Gözümün qarasın yazı lövhəsi,
Ağını, müəllim, təbaşir eylə.

Mənə əlifbanı öyrət yenidən,
Sual ver, cavab al, haqqını haqla.
Öyrənə bilməsəm, razıyam, müəllim,
Sən məni ömürlük sinifdə saxla.

Mənə əlifbanı öyrət yenidən
Düşməmiş xəyalım yenə dərbədər.
Üzmə ətəyindən əllərimi sən,
Apar ibtidadan aliyə qədər.

Mənə əlifbanı öyrət yenidən,
Özümdə özümü dərk edim barı.
Əzəl də sən oldun, sonda da sənsən
Həyat məktəbinin kamil memarı.

Mənə əlifbanı öyrət yenidən,
Bu sevgim, bu andım, bu eşqim haqdır.
Sevəcəm mən səni Allaha qədər,
Gülayə dastanı yazılacaqdır.

# GEDİM, YENİDƏN GƏLİM

Başlayib yer ilə-göyün davaşı,
Bitməz bu sevdanın qanlı göz yaşı.
Dayan zaman ilə, dayan yanaşı,
Gözlə məni, gedim, yenidən gəlim.

Olsan da dünyanın harasında sən,
Gözümün ağında, qarasında sən.
Qələmlə qəlbimin arasında sən
Gözlə məni, gedim, yenidən gəlim.

Mən özgə libasda, donda gələcəm,
Əzəldə gələcəm, sonda gələcəm,
Adımı andığın anda gələcəm,
Gözlə məni, gedim, yenidən gəlim.

Könlündə xana qur, ağ libas toxu,
Ömür kitabımı varaqla, oxu.
Mən yarı gerçəyəm, yarı da yuxu,
Gözlə məni, gedim, yenidən gəlim.

Ah çəkmə, ahını, amanını at,
Yatsan ölümsüzlük laylasında yat.
Həyatda ölüm var, ölümdə həyat,
Gözlə məni, gedim, yenidən gəlim.

Sənə əmanətdir bu sirli qalam,
Sənə əmanətdir beşiyim, balam.
Həyata naxış ol, ölümə salam,
Gözlə məni, gedim, yenidən gəlim.

Əgər dansa məni - oxla zamanı,
Haqla, ədalətlə haqla zamanı,
Yapış yaxasından saxla zamanı,
Gözlə məni, gedim, yenidən gəlim.

Sökülər dan yeri, Ay nədən ağlar?
Qucaqlar dünyanı, ay, nadan ağlar!..
Yar yara boylanar aynadan, ağlar,
Gözlə məni gedim, yenidən gəlim.

Günəş qürub eylər, Ay doğar yenə,
Gün günə calanar, ay doğar yenə,
Ox ollam, anam da yay doğar yenə,
Gözlə məni, gedim, yenidən gəlim.

Açılıb mübarək baxtımın baxtı,
Bəzənib xonçası, qurulub taxtı.
Ölüm məndən ötrü ölür nə vaxtdı,
Gözlə məni, gedim, yenidən gəlim.

Dolan baharımda, dolan qışımda,
Yıxılma həyatın sərt savaşında,
Əyləş eşqimizin elçi daşında,
Gözlə məni, gedim, yenidən gəlim.

Amandı, fələklə beş-daş oynama,
Gözü göz çıxarar, göz-qaş oynama.
Salar xəyalını çaş-baş, oynama,
Gözlə məni, gedim, yenidən gəlim.

Keçsə də milyon il, keçsə də min il,
Yenə gələcəyəm, gələcəyəm, bil.
Getdiyim bu gediş son gediş deyil.
Gözlə məni, gedim, yenidən gəlim.

Gülayə, qəlbində ağrı-acı var,
Ağlama, hər dərdin bir əlacı var.
Zamanın zamana ehtiyacı var,
Gözlə məni, gedim, yenidən gəlim.

# DEYƏN OLMADI Kİ, SON QƏMİN OLSUN

Matəm içindəyəm neçə zamandır,
Deyən olmadı ki, son qəmin olsun!
Dünyamı boşalıb, Allah, amandır-
Deyən olmadı ki, son qəmin olsun!

Bəxtim qan üstünə gül ələyibdir,
Bağrımı yandırıb, kül ələyibdir,
Zaman gümanımı güllələyibdir,
Deyən olmadı ki, son qəmin olsun!

Boğuldu gümanım sis - dumanında,
Bir şəhid vermişəm hər bir anımda.
Qalmışam Şəhidlər xiyabanında,
Deyən olmadı ki, son qəmin olsun!

Hanı bu dünyanın söz adamları,
Hanı bu dünyanın düz adamları,
Hanı bu dünyanın öz adamları? -
Deyən olmadı ki, son qəmin olsun!

Könlümün sazında həsrət sədası,
Qəm ilə çalındı eşqin havası.
Çökdü taleyimə hicranın yası,
Deyən olmadı ki, son qəmin olsun!

Sitəm oldu, kədər oldu illərim,
Dil açıb ağladı şən bülbüllərim,
Soldu əllərimdə qərənfillərim,
Deyən olmadı ki, son qəmin olsun!

Cəmlədim, cəmləndi cəmi də mənə,
Məndən gəldi gələn həmi də mənə.
Güldü bu dünyanın qəmi də mənə,
Deyən olmadı ki, son qəmin olsun!

Gülayə, gözlərin yaş qəhrəmanı,
Dinmir taleyinin daş qəhrəmanı.
Öldü əsərinin baş qəhrəmanı,
Deyən olmadı ki, son qəmin olsun!

## SƏNİ KİRİTMƏYİN MİN BİR YOLU VAR

Səni kiritməyin min bir yolu var -
Dərdini dərindən bilməkdir biri.
Ölüncə dərdini, dönüb başına
Dolana-dolana bölməkdir biri.

Səni kiritməyin min bir yolu var,
Ölən gümanını qaytarım diri.
Hamının gedəni gəlsin, sevdiyim,
Gedib də yenidən gəlməkdir biri.

Səni kiritməyin min bir yolu var -
Həm dardı, həm edam, həm ilmək yeri.
Hökmün ölüm doğsa anın içində,
Sorğusuz-sualsız ölməkdir biri.

Səni kiritməyin min bir yolu var -
Ağrım ağrın çəkir, ağlama, kiri.
Gedib ağladanın özünə qədər,
Ağlaya-ağlaya gülməkdir biri.

Səni kiritməyin min bir yolu var -
Zaman gözlərində görməz bu tiri.
Silsəm əllərimlə əlim quruyar,
Gözünü gözümlə silməkdir biri.

Səni kiritməyin min bir yolu var -
Bir sən biləcəksən, bir mən bu sirri.
Yolunda gedib də Allaha qədər,
Sonra da, bax, sənə dönməkdir biri.

# SONUNCU LƏLƏK

Bax, belə başladı bizim nağlımız,
Başdan bu nağılı danışım gərək.
Mənim söylədiyim nağılın adı
Sonuncu atəşdi, sonuncu lələk...

Əgər dara düşsən darıxma dedin,
Yandır lələyimi, gələcəm həmən.
Qalmışam nə qədər darda, biləsən,
Nə qədər lələklər yandırmışam mən.

Yandırsam sonuncu lələyi də mən,
Sonunda bir nağıl beləcə bitər.
Yenə gəlməyəsən sənsizliyimdə,
Qorxuram sonuncu ümidim itər.

Hələ qəlbimdədi sonuncu ümid,
Hələ gümanımda yandırmışam şam.
Hər gün yuxularda görürəm ki, mən
Sonuncu lələyi yandırmamışam.

# YALAN SEVMİŞƏM

Bağlıdı əhf yolu, barışıq yolu,
Yoxdur bəraəti, bil, bu günahın.
Səbəbi mənliksə, Allah eşqinə,
Öldür, ölümümlə sil bu günahı -
Sevmişəm mən səni, yalan sevmişəm.

Mənim tək sevənin varsa dünyada
Deməli, yar sevib, yar anmamışam.
Ya mən mən deyiləm, deyim ki, ya da
Yalanam, hələ də yaranmamışam -
Sevmişəm mən səni, yalan sevmişəm.

Bircə sevincini bölüm demirəm -
Dərdin dərə-dərə bölməmişəmsə.
Bir kərə ölümə ölüm deməm
Bir anda min kərə ölməmişəmsə -
Sevmişəm mən səni, yalan sevmişəm.

Bir yana qalsın qoy fədakarlığım,
Sənsiz almışamsa tək bircə nəfəs
Baxışım, gülüşüm, bütün varlığım...
Yalandı bu haray, yalandı bu səs -
Sevmişəm mən səni, yalan sevmişəm.

Aləmə səs salıb deyəcəm: -Bilin,
Bilin, bir vəfalı yarın yarıyam.
Əyilən qamətin, qırılan belin,
Ağaran saçların günahkarıyam -
Sevmişəm mən səni, yalan sevmişəm.

Yalanam, yellərə ver, götürməsə
Tutsun ahın məni, etsin dərbədər.
Yerlə yeksan olum, yer götürməsə,
Bük məni ahına, göylərə göndər -
Sevmişəm mən səni, yalan sevmişəm.

Yoxdursa fırtınam, ya fəlakatim,
Yoxdursa zülm evim, zindan əzabım.
Yoxdursa yolunda gücüm-taqətim,
Yoxsa əzabına dözmək əzabım -
Sevmişəm mən səni, yalan sevmişəm.

Yoxdur bəraəti ölümün belə,
Keçmə günahımdan, demə keçmişəm.
Desələr "Gülayə öldü" - inanma,
Həqiqi aşiqlər çətin ki ölə -
Mən ölsəm, deməli yalan sevmişəm.

## QORXURAM SAĞALAM BU XƏSTƏLİKDƏN

Qorxuram sağalam bu xəstəlikdən,
Ayrılam dərdimdən, dərmanlarımdan.
Qorxuram sağalam, çıxıb gedəsən,
Ayrıla can gedə, canım, canımdan.

Dəyişə yerini axşam sabahla,
Bilməyəm gündüzdü, bilməyəm gecə.
Boğulam sükutun səssizliyində,
Bir ömür şam kimi əriyə, keçə.

Görməyəm bir daha səni yenidən,
Məni tərk edəsən, sağaldım deyə.
Özün öldürəsən məni yenidən,
Sağalmaz dərdimi sağ aldım deyə.

Özün tanıyırsan həmin qılıncı,
Yarır sinəsini qara daşın da.
Mənim başım ola, qəmin qılıncı
Sənin həsrətinin son savaşında.

Qorxuram sağalam bu xəstəlikdən,
Soruşan olmaya məndən "necəsən?"
Qopa məhvərindən dünyam, yıxıla,
Yanımdan yad kimi gəlib keçəsən.

Qorxuram sağalam bu xəstəlikdən,
Qollarım bağlana dizimə mənim.
Hər səhər əlinlə açdığın qapı
Ömürlük bağlana üzümə mənim.

Qorxuram sağalam bu xəstəlikdən,
Sevinəm, sevincim bir anlıq ola.
Qəfil soyunasan ağ xalatını,
Dünya qara geyə, qaranlıq ola.

Qorxuram sağalam bu xəstəlikdən,
Dərdin ürəyini üzə dərdimin.
Bu dərdin adını özün qoy, həkim,
Adı qoyulmayıb təzə dərdimin.

# YUXUNU SULARA SÖYLƏ, SEVDİYİM
## I

Danışma, danışma yuxunu mənə,
Ağzından yel alsın...yellər aparsın.
Danışma, danışma yuxunu yenə,
Alsın bəd yuxunu, sellər aparsın.
Yuxunu sulara söylə, sevdiyim.

Yanarsan, meylini oduna salma,
Dönər xəyalların dərbədər gələr.
Özünü ölümün yadına salma,
Ölüm öz adını eşidər gələr.
Yuxunu sulara söylə, sevdiyim.

Qəlbimi qəm yarar, gözlərimi nəm,
Çəkilər gözümə sədd yuxulardan.
İçər qədəh-qədəh sevincimi qəm,
Mən yaman qorxuram bəd yuxulardan.
Yuxunu sulara söylə, sevdiyim.

Günəş gözlərimdə batar, ayılmaz,
Enər göylər yerə göyərçin olar.
Belə yuxu görən, yatar ayılmaz,
Amandı, yuxular dönər çin olar.
Yuxunu sulara söylə. sevdiyim.

Mən aşa bilmərəm hicran dağını,
Göylər əlcimimi aparar gedər.
Söndürər gözümün nur çırağını,
Özümdən-özümü qoparar gedər.
Yuxunu sulara söylə, sevdiyim.

Döndər qum saatın, döndər geriyə,
Ölümün gözləri yol çəkir indi.
İtən gümanını göndər geriyə,
Ölüm qərarına, qol çəkir indi.
Yuxunu sulara söylə, sevdiyim.

Əyilsin mənim tək beli həsrətin,
Qoymadı sinəmdə bircə yer daha.
Boş dönsün qapından əli həsrətin,
Dönməz olsun ünvanına bir daha,
Yuxunu sulara söylə, sevdiyim.

Al çiyninə mələklərin balasın,
Yum gözünü, yeri göylə, sevdiyim,
Allah özü görüb xeyrə calasın,
Yuxunu sulara söylə, sevdiyim.
Yuxunu sulara söylə, sevdiyim.

# SEVGİDƏN BAŞLADI BU AYRILIQLAR

Soruşsan axşamdan, sabahdan soruş,
Günahkar axtarma nahaqdan, soruş,
Mənə inanmasan Allahdan soruş,
"Sevgidən başladı bu ayrılıqlar".

Baxdım gözlərinə, gözümə köçdün,
Özümsən, özümdən özümə köçdün.
Şeirimə, nəğməmə, sözümə köçdün,
Sevgidən başladı bu ayrılıqlar.

Durdu zaman belə, an çiçəklədi,
Söküldü göylərdə dan çiçəklədi,
Köksümü yardın sən, qan çiçəklədi,
Sevgidən başladı bu ayrılıqlar.

Ağladın, gözündə yaşa qısqandım,
Gəldin kölgən ilə qoşa, qısqandım,
Yaşadın ömrünü, yaşa qısqandım,
Sevgidən başladı bu ayrılıqlar.

Düşdüm qəm oduna, külə yazarsan,
Çəkdiyimi bilə-bilə yazarsan,
Könül dəftərinə belə yazarsan:
Sevgidən başladı bu ayrılıqlar.

Gülayə, bu dünya dar, məzarını,
Sığmazsan, axtarma var məzarını.
Qazmışam köksümdə yar məzarını,
Sevgidən başladı bu ayrılıqlar.

# ÖLÜM, GÖZLƏRİNDƏ DƏFN EYLƏ MƏNİ

Gəlim qaranlıqdan işığa sarı,
Sarı, taleyimi işığa, sarı...
Gözün gözlərimə işıq hasarı,
Ölüm, gözlərində dəfn eylə məni.

Özgəyəm özümdə, özünə dönüm,
Söylə, deyilməmiş sözünə dönüm,
Mən göz aşiqiyəm, gözünə dönüm,
Ölüm, gözlərində dəfn eylə məni..

Etdi yoxdan məni var baxışların,
Baxdım, dənələndi nar baxışların.
Səadət qibləmdi, yar, baxışların,
Ölüm, gözlərində dəfn eylə məni.

Düşməyim gözündən bir an irağa,
Bük, bələ sən məni gözündə ağa.
Vermə əllərinlə qara torpağa,
Ölüm, gözlərində dəfn eylə məni.

Qoy olsun məzarım qara gözlüyün,
Eşqin, sədaqətin, haqqın, düzlüyün,
Ölüm laylasında ölümsüzlüyün,
Ölüm... gözlərində dəfn eylə məni!

Yoxdan varlığımı yaradan yarım,
Yaram yara alıb yaradan, yarım,
Məni eşqi ilə yaradan yarım,
Ölüm, gözlərində dəfn eylə məni.

Ölüm neçə kərə, yenə doğ, ölüm,
Dərya gözlərinə dolum, boğ, ölüm,
İstər xəstə ölüm, istər sağ ölüm,
Ölüm, gözlərində dəfn eylə məni.

Nə sərxoş bir xəyal, nə dəm səsidir,
Nə hicran nəğməsi, nə qəm səsidir.
Bu ölüm eşqimin qələbəsidir,
Ölüm, gözlərində dəfn eylə məni.

Elə ölüm, ölüm daha gəlməsin,
Elə ölüm, ölüm aha gəlməsin,
Elə ölüm, ölüm baha gəlməsin,
Ölüm, gözlərində dəfn eylə məni.

# "OXU, BÜLBÜL, BƏLKƏ YARIM OYANA"

Bu nə yuxu, söylə bilim, gəlməyir?
Özüm oyatmağa əlim gəlməyir,
Əlvida deməyə dilim gəlməyir,
Canmı qalıb, bu möhnətə dayana?
Oxu, bülbül, bəlkə yarım oyana.

Tufan qopdu, sel yeridi üstümdən,
Oba köçdü, el yeridi üstümdən,
Yandı canım, kül yeridi üstümdən,
Ox dəyibdir çəkiləndə yay ona.
Oxu bülbül, bəlkə yarım oyana.

Haray çəkdim, lal sükutu dindirdim,
Yeri göyə, göyü Yerə endirdim,
Göz yaşımla al günəşi söndürdüm,
Qorxuram ki, dünya qara boyana,
Oxu, bülbül, bəlkə yarım oyana.

Yaralanıb, yara geyib sabahlar,
Ümidimi dara geyib sabahlar,
Mənim kimi qara geyib sabahlar,
Qıyma mənim ahım ərşə dayana,
Oxu, bülbül, bəlkə yarım oyana.

Yasa batdım yar yasında yatıbdır,
Bir sevdanın səhrasında yatıbdır,
Yar hicranın laylasında yatıbdır,
Ağır yatıb, bir də çətin oyana,
Oxu, bülbül, bəlkə yarim oyana.

Belə olmaz yar ilqarı, yar andı,
Mən neylədim, öz əhdini o dandı.
Gülayəyəm, yalvarıram, amandı,
Pərişan halımı anlasın, ansın,
Oxu, bülbül, bəlkə yarım oyansın.

Ay Gülayə, deyənin yox dön, gəlir,
Bir az yaxın, bir az uzaq, gen gəlir,
Qarşı dağdan duman gəlir, çən gəlir,
Yol görünmür həsrətindən o yana,
Oxu, bülbül, bəlkə yarım oyana.

# GƏLMİŞƏM Kİ, DEYƏM GƏLMƏYƏCƏYƏM

Bu özgə gəlişdi, bu özgə baxış,
Bu özgə tufandır, bu özgə yağış,
Bu özgə taledi, bu özgə naxış,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Dərdim, çiçəklədin, ay bar ağacım,
İşgəncəm, əzabım, ay var ağacım,
Ay edam meydanım, ay dar ağacım,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Ölümüm, zülümüm, məşəqqətimsən,
Tufanım, fırtınam, fəlakətimsən,
Mənim yalanım sən, həqiqətim sən,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Mən tərki-dünyayam, dünya sənindir,
Çıxmısan halımı seyrə sən indi,
Yaşa mənsizlikdə, yaşa sən indi,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Bu eşqin əzabı, dözümü mənim,
Dinlə son kəlməmi, sözümü mənim,
Sil daha qəlbindən izimi mənim,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Mən sənə can dedim, sən özgəsinə,
Haqq deyə bilmədin haqqın səsinə.
Cavab ver vicdanın məhkəməsinə,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Həsrətin qoru var könlümdə mənim,
Soldu gülşənim də, gülüm də mənim,
Bir layla göynəyir dilimdə mənim,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Sınmış qanadımı sərib quş kimi,
Göylərin üzünə gərib quş kimi.
Mən köçüb gedirəm qərib quş kimi,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Gedirəm, çatıbdır ayrılıq dəmi,
Mənə halal eylə verdiyin qəmi,
Ağrını, acını, dərdi, sitəmi,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

Anarsan adımı, bir gün gələr də,
Şeir də, nəğmə də, deyim nələr də...
Axtar Gülayəni əfsanələrdə,
Gəlmişəm ki, deyəm gəlməyəcəyəm.

# SƏNİ YAŞAYIRAM, SƏNİ, SEVDİYİM

Hər səhər oyadıb deyirdin mənə:
-Oyan, dərmanının vaxtı keçməsin.
Deyərdin qorxuram yatıb qalarsan,
Oyan, dərmanının vaxtı keçməsin.

Üzümü qoymuşam hər bir izinə
Andıqca hər anda xoş anlarımı.
"Dur iç" söyləyərdin, su əvəzinə
Səsinlə içərdim dərmanlarımı.

Elə öyrəşmişdim sənin zənginə,
Zənginlə bilərdim vaxtı-zamanı.
Baxmazdım saata, baxmazdım vaxta,
Saxlaya bilmədim, axdı zamanı.

Şirin eyləyərdim şirin səsinlə
Zəhər dərmanımın dadını belə.
İndi də sənsizlik işgəncəsində
Unutdum dərdimin adını belə.

Odunu-külünü yelmi apardı,
Daramı çəkdi, de, qəfil dar səni?
De, tufanmı qopardı, selmi apardı?
Bilmirəm, göylərmi uddu, yar, səni.

Bir özgə ağrı var indi canımda,
Dilimdə bir ağı bəstələnibdir.
Sapsarı saralıb dərmanlarım da,
Dərd çəkib dərdimdən, xəstələnibdir.

Gözümün yaşında dəmləndi aşın,
Dərin dəryalara batıb qalıbsan.
Şirin yuxulara qarışıb başın,
İndi də sən özün yatıb qalıbsan.

Deyərdin hər dərdin bir dərmanı var,
Vardır söyləyərdin... Bəs hanı yoxdur?
Sənin həsrətinlə göyərən dərdim
Axtardım, heç yerdə dərmanı yoxdur.

Mənəm axşamlarda yanan o ağ şam,
Səninləyəm, səndən sənə nə deyim.
Özümdə özümü mən unutmuşam,
Səni yaşayıram, səni, sevdiyim.

# YUXUNU SULARA SÖYLƏ, SEVDİYİM
## II

Gördüm gedənləri çağırıram mən,
Deyirəm ki, gəlin, gəlin gedirəm.
Gəlinlik donumu geyib əynimə,
Gördüm həsrətinə gəlin gedirəm.

Görürəm, görürəm, mən deyiləm mən,
Gördüm sən deyilsən, o gördüyüm sən.
Tanış gəlməyirəm hələ mənə mən,
Mən də bir özgəyəm, bir özgəsən sən.

Günahlar zamanın boynunda gəlir,
Göylərdə göyərir qəlbin göynəyi,
Gördüm ümidimin qoynunda gəlir,
Mənim sevdiyimin qanlı köynəyi.

Gedəni yolundan eyləyirəm mən,
Görürəm ahımda sular dayanır,
Yuxumu sulara söyləyirəm mən,
Görürəm gözümdə sular da yanır.

Üstümə qanadın gərib gecələr,
Görürəm ağlama, ağlama deyir.
Gördüm bir göyərçin döyüb qapımı,
Yuxunun qapısın bağlama deyir.

Görürəm, görürəm, hələ yaşayır,
Görürəm yeriyir göylə sevdiyim.
Görürəm gizlincə mənə deyir ki,
Yuxunu sulara söylə, sevgilim.

# SƏNİ GÖZLƏMİŞƏM BU GÜNƏ QƏDƏR

Gözlərim yollara çəkib rəsmini,
Səni gözləmişəm bu günə qədər.
Eşqin varağına büküb rəsmini,
Səni gözləmişəm bu günə qədər.

Məndən yaxşı gəlib, yaman keçibdi,
Çəkmişəm, ah gəlib, aman keçibdi.
Dövran dəyişibdi, zaman keçibdi,
Səni gözləmişəm bu günə qədər.

Sevda səmasında havasız qalıb,
Qərib quşlar kimi yuvasız qalıb,
Eldən ayrı düşüb, obasız qalıb,
Səni gözləmişəm bu günə qədər.

Dözmüşəm, mat qoyub dözümü belə,
Yollardan çəkməyib gözümü belə.
Sənə qurban deyib özümü belə,
Səni gözləmişəm bu günə qədər.

Gəlinlik donumu ağ şam kimi mən,
Geyinib əynimə, ağ şam kimi mən,
Sabaha qarışan axşam kimi mən
Səni gözləmişəm bu günə qədər.

Şaxtanın, tufanın qar köynəyindən,
Ölümün, zülümün dar köynəyindən,
Keçmişəm yarıb da yar köynəyindən,
Səni gözləmişəm bu günə qədər.

Qaralsın göylərdə dan deyə-deyə,
Çəkdi qılıncını qan deyə-deyə,
Hər an həsrətinə «can» deyə-deyə
Səni gözləmişəm bu günə qədər.

Gündüz günəş, gecə ay libasında,
Sənin həsrətinlə vay libasında,
Bəzən də oynayıb toy libasında
Səni gözləmişəm bu günə qədər.

Bu sirri deməyib yarıma, sirdi,
Yarın zindanında yarım əsirdi,
Hesabla hər anı, yarım əsirdi
Səni gözləmişəm bu günə qədər.

Gülayə, çəkdiyin hər aha şükür,
Bu sənli açılan sabaha şükür.
Gəldin əzəl-axır, Allaha şükür,
Səni gözləmişəm bu günə qədər.

# QOYNUNA AL MƏNİ, LAYLA DE, LAYLA

Bilmirəm ki, gecə, yoxsa sabahdı?
Qoynuna al məni, layla de, layla.
Yuxularım ərşə çıxıb nə vaxtdı,
Qoynuna al məni, layla de, layla.

Bax gözümə, gözlərinə möhtacam,
Şirin-şirin sözlərinə möhtacam,
Qoy baş qoyum, dizlərinə möhtacam,
Qoynuna al məni, layla de, layla.

Əfsanəymiş meyl etdiyim ziba, zər,
Ömrüm, günüm gəldi-keçdi, bax, hədər,
Yazıq canım qəm evində dərbədər,
Qoynuna al məni, layla de, layla.

Qəm qalasın gizlin açıb gəlmişəm,
Bir yaralı quş tək uçub gəlmişəm,
Kimsəm yoxdur, sənə qaçıb gəlmişəm,
Qoynuna al məni, layla de, layla.

Ömrü-günü son bahara verməmiş,
Tufanlara, sazaqlara verməmiş,
Əllərinlə torpaqlara verməmiş
Qoynuna al məni, layla de, layla.

Çatammıram can evinə laylasız,
Dərdi-qəmi atammıram laylasız,
Nə zamandı yatammıram laylasız,
Qoynuna al məni, layla de, layla.

Könlün köç eyləsə mənli çağa gəl,
Qəm buludum, doğsan yağa-yağa gəl,
Darıxanda ucaltdığım dağa gəl,
Qoynuna al məni, layla de, layla.

Gedək quraq dağ başında alaçıq,
Yaram üstə yaraların var açıq,
Taleyimin laylaları yarımçıq,
Qoynuna al məni, layla de, layla.

Bir layla de, gedənləri dayandır,
Bir layla de, ərşi-fələyi yandır,
Bir layla de, yatanları oyandır,
Qoynuna al məni, layla de, layla.

Demirəm ki, daş beşiyi yırğala,
Göz yaşımdı, yaş beşiyi yırğala,
Mən olmasam, boş beşiyi yırğala,
Qoynuna al məni, layla de, layla.

De, Gülayə duysun yenə o səsi,
Bağlanmamış taleyimin səhnəsi,
Söylə mənə bir əlvida nəğməsi,
Qoynuna al məni, layla de, layla.

# SƏN OLMASAYDIN

Yazılmazdı əlifbası dünyanın,
Çalınmazdı xoş laylası dünyanın,
Bilinməzdi toyu, yası dünyanın
Sən olmasaydın.

Lal olardım, quş dilini bilməzdim,
Lal olardım, daş dilini bilməzdim,
Bu dünyanın xoş dilini bilməzdim
Sən olmasaydın.

Nə bilərdim nədir haqqa ziyarət,
Nə bilərdim nədir sevda, sədaqət.
Nə bilərdim nədir mehri-məhəbbət
Sən olmasaydın.

Buz donardı cığırında, izində,
Buz donardı dərəsində, düzündə,
Buz donardı bu dünyanın üzündə
Sən olmasaydın.

Saralardı qəmli-qəmli çiçəklər,
Uğuldardı acı-acı küləklər,
Ağı deyib ağlayardı mələklər
Sən olmasaydın.

Pərən-pərən dağılardı arzular,
Qaranlıqda boğulardı arzular,
Ölü-ölü doğulardı arzular
Sən olmasaydın.

# GÖZLƏRİMƏ BAX

Ucalıbdır ildən-ilə öz dağım,
Həsrət olub, hicran olub söz dağım,
Gözlərimdə dilə gəlib göz dağım,
Gözlərimə bax!

Sanma can alanam, nə müqəssirəm,
Baxsan əgər sən bilərsən nə sirrəm,
Mən qarşında qolu bağlı əsirəm,
Gözlərimə bax!

Gülayəyəm, sənsən mənim güvəncim,
Həm gövhərim, zərim, ləlim, həm incim,
Bir baxışın bir ömürlük sevincim,
Gözlərimə bax!

Ərşə çixib gözlərimdə gündüzüm,
Görünməyir nə cığırım, nə izim,
Göz ürəyin aynasıdı, əzizim,
Gözlərimə bax!

Köz dilində danışacaq səninlə,
Öz dilində danışacaq səninlə,
Göz dilində danışacaq səninlə,
Gözlərimə bax!

Çaxacaqdı, çaxmağı var, incimə,
Yandırmağı , yaxmağı var, incimə,
Qəm seli tək axmağı var, incimə,
Gözlərimə bax!

Sevinmişəm, dəm dustağı olubdu,
Ağlamışam, nəm dustağı olubdu,
Yaranandan qəm dustağı olubdu,
Gözlərimə bax!

Naşı baxsa tufan qopar, sel daşar,
Şimşək oynar, ildırımlar çaxnaşar,
Gözlərində ömrü boyu haqq yaşar,
Gözlərimə bax!

Gülayəyəm, könül verməm hər yada,
Gəmilərim qərq olsa da dəryada,
Deyilməmiş söz istəsən dünyada
Gözlərimə bax!

# VƏTƏN

Bu gün and günümdü mənim, ey vətən,
Əhdim, andım sənin andından keçir.
Sənsən varlığıma, ruhuma hakim,
Keçir yaddaşımdan, yadımdan keçir.

Bu od nəfəsimlə buz baxışlrı
Adıına and olsun, əridəcəyəm.
Mən sənə andımın qolumdan tutub,
Sənin dərgahında yeridəcəyəm.

Elə sevəcəm ki, səni dünyada,
Sənə and içirəm, mənim andım haqq.
Sevmişəm mən səni, elə sevəcəm, -
Bütün sevgilərim sevgi doğacaq.

Doğacaq hər səhər günəş doğan tək,
Doğacaq ay kimi axşamlarında.
Köksünün üstündə məşələ dönüb,
Əbədi yanacaq ağ şamlarında.

Nə haqqım bu haqqı bölməyə belə?
Cismim, canım, ruhum sənlə tən, Vətən.
Yoxdur mənim haqqım ölməyə belə
Asılıb-soyulsam tənbətən, Vətən.

Ruhumdan uzaqdır ölüm özü də,
Sevgisiz sevgilər bir anda ölür.
Öldürüb ölümü, ölüm özü də
Böyük sevgilərin önündə ölür.

Bu gün and günümdü mənim, ey Vətən
Sənə sevgi ilə yenilməz dağam.
Uca sevgilərin fövqündə durub
Əbədi sevgimə qovuşacağam.

Qurdum sevgim ilə, sözümlə qurdum
Vətən ürəyimdə vətən qalasın.
Gülayə, ömrünü elə yaşa ki,
Arxanca şax baxsın vətən qalası.

# DÜNYANIN İŞIĞI ÜZÜNDƏ GEDİB

Geriyə dön, dön geriyə, amandır,
Dözümüm, taqətim dizində gedib.
Gecələr ahımdan alışdı, yandı,
Gözümün yuxusu gözündə gedib.

Sənsizlik nə demək-deyim bir anlıq,
Həsrətin selləri axır bulanlıq.
Nə ay var, nə ulduz, hər yan qaranlıq,
Dünyamın işığı üzündə gedib.

Atəşə, alova, oda dönməyə,
Verib arzuları bada, dönməyə,
Ya qismət, ya dönə, ya da dönməyə,
Ümidim, gümanım izində gedib.

Demirəm son sözüm qoy sona qalsın,
Ömürdən nə qalıb say, sana qalsın.
Hələ saydıqlarım bir yana qalsın,
Özümü tapmıram, özündə gedib.

Gülayə, agah ol bu ülvi eşqdən,
Günəşi günəşdir, çəni də ki, çən.
Bir gün gözlərini açıb görərsən
Ömrümüz hicranın düzündə gedib.

# BƏNZƏMİR

Təklənmişəm özgələrin köçündə,
Yazına yaz, qışına qış bənzəmir.
Axtarmışam mən baxışlar içində,
Baxışına heç bir baxış bənzəmir.

Hayıf, keçdi ömrümüzdən o anlar,
Sel içində axdı getdi gümanlar.
Gözlərimdə dayanmayır leysanlar,
Yağışına heç bir yağış bənzəmir.

Bir sual var bu sinəmi göynədən,
Yollarımız ayrı düşdü bəs nədən?
Hara getdin həyat adlı səhnədən,
Naxışına heç bir naxış bənzəmir.

Gülayəyəm, deyim doğru sözü mən,
Dolanmışam hər cığırı, izi mən.
Sürünmüşəm dizin-dizin düzü mən,
Yoxuşuna heç bir yoxuş bənzəmir.

# ÜMİDİMİN ƏLLƏRİ BOŞ QAYIDIB

Göndərdim ki, dərdə dərman götür, gəl,
Göndərdim ki, bu həsrəti bitir, gəl,
Göndərdim ki, gedənimi gətir gəl,
Bağrım yandı, demədim xoş qayıdıb,
Ümidimin əlləri boş qayıdıb.

Qanadına tilsimlənmiş daş alıb,
Hara köçür xəyallarım baş alıb?
Sən yoxsan ki, dünya belə boşalıb?
Gözlərində yenə də yaş qayıdıb,
Ümidimin əlləri boş qayıdıb.

Sevincimi kəm gətirib qoynunda,
Kədərimi cəm gətirib qoynunda,
Bir ömürlük qəm gətirib qoynunda.
Gümanımda göyərib daş, qayıdıb,
Ümidimin əlləri boş qayıdıb.

Baxdı mənə, yad gözündən incidim,
Ruzigarın sərt üzündən incidim.
Gecəsindən, gündüzündən incidim.
Gülşənimə qırovlu qış qayıdıb,
Ümidimin əlləri boş qayıdıb.

İz içində iz axtarıb tapmayıb,
Kül içində köz axtarıb tapmayıb.
Ay Gülayə, söz axtarıb tapmayıb,
Qəm evindən qəlbi naxoş qayıdıb,
Ümidimin əlləri boş qayıdıb.

# DÜNƏN SEVİNCİMDİN

Ölümə qədərdi bu ölüm-itim,
Gözümdə qurumaz nəmimsən mənim.
Dünən sevincimdin, bu gün həsrətim,
Sabah da ən ağır qəmimsən mənim.

Ağlaya-ağlaya güldüm, dirildim,
Ölümün gözünü sildim, dirildim.
Hicran sahilində öldüm-dirildim,
Dəryada qərq olan gəmimsən mənim.

Tərif edə-edə tər gülü dünya,
Bəslədi, soldurdu hər gülü dünya.
Dərdimdən dəm oldu mürgülü dünya,
Dedi ki, kəsirim, kəmimsən mənim.

Min bir döngələrdən dönüb sənsizlik,
Çıxıb göyə, göydən enib sənsizlik.
Dinib sükut ilə, dindi sənsizlik:
Həsrətin sazında bəmimsən mənim.

Bütün ağrın-acın say, mənə gəlsin,
Yar, mənə qıydığın pay mənə gəlsin,
Səndən gələn bəla qoy mənə gəlsin,
Çovğunum, tufanım, çənimsən mənim.

Başdan ağı yazdım, bayatı yazdım,
Sənsiz can verdiyim saatı yazdım,
Öldürdüm ölümü, həyatı yazdım,
Könlümdə sönməyən şamımsan mənim.

Gümanın ovcunda cücərəcəksən,
Hər anın ovcunda cücərəcəksən,
Zamanın ovcunda cücərəcəksən,
Torpağa səpilən dənimsən mənim.

Ölümə qədərdi bu ölüm-itim,
Gözümdə qurumaz nəmimsən mənim.
Dünən sevincimdin, bu gün həsrətim,
Sabah da ən ağır qəmimsən mənim.

# SƏNSİZ

Bir sevdanın qucağında
İnildəyir kaman sənsiz.
Hicran məni eşq dağında
Yaxaladı yaman sənsiz.

Qismətə bax, al da yanıb,
Atəş qopub, xal da yanıb,
Sükut çöküb, lal dayanıb
Gözlərimdə zaman sənsiz.

Gül üstündən gül ələyib,
Həyat məni güllələyib.
Gecə-gündüz hey mələyib
Qəm çölümdə güman sənsiz.

Yas içində qəm şəhərim,
Var hüzünüm, qəm-qəhərim.
Açılmayır xoş səhərim,
Çəkilməyir duman sənsiz.

Qurulubdur hicran yası,
Aşıb-daşdı qan dəryası,
Yox Məcnunu, yox Leylası,
Hicran çölü viran sənsiz.

Buz divardır, boş xanədir,
Gözlərimdə yaş xanədir,
Başdan-başa boş xanədir,
Dünya özü yalan sənsiz.

Gör gözlərim gördü nələr,
Çəkdiyimi çəkən bilər.
Daşa dönən dəqiqələr
Tutdu mənə divan sənsiz.

Gülayəyəm, gülüm haqdır,
Yandım elə - külüm haqdır,
Gəlir gəlsin, ölüm haqdır,
İstəmərəm aman sənsiz.

# SƏNLƏ SƏNSİZLİYİN ARASINDAYAM

Qəsri-qala qurdun, qəm dustağın mən,
Sərxoş xəyalımsan, dəm dustağın mən,
Həm sevda mələyin, həm dustağın mən,
Sevən aşiqlərin yarasındayam,
Sənlə sənsizliyin arasındayam.

Sən yaşıl bir budaq, mən düşən yarpaq,
Mən dərin bir dərə, sən uca bir dağ,
Sən sonsuz asiman, mən ana torpaq,
Külli-kainatın parasındayam,
Sənlə sənsizliyin arasındayam.

Əllərim yetməmiş toy-büsatına
Fələk qamçı vurdu ömrün atına.
Tənha boylanıram qəm saatına,
Sağalmaz dərdlərin çarasındayam,
Sənlə sənsizliyin arasındayam.

Gülayə, başlayıb tufan, qar, sazaq,
Bu sevda yolunu qorxuram azaq.
Nə qədər yaxınsan, o qədər uzaq,
Bilmirəm dünyanın harasındayam,
Sənlə sənsizliyin arasındayam.

# SƏNSİZLİYİN BİR YOLU VAR

Get deyirsən, hara gedim, bilmirəm,
Bu sevdanın zəncirləri qolumda.
Get deyirsən, hara gedim, bilmirəm,
Hara getdim, sən dayandın yolumda.

Gör nələr var həsrətindən o yana;
Atəş dağı, alov dağı, köz dağı.
Gör nələr var həsrətindən o yana;
Nə gördümsə gözlərimə göz dağı.

Göstər mənə ayrılığın yolunu,
Mənsizlikdə yollar bölüm -bölümdür.
Göstər mənə ayrılığın yolunu,
Sənsizliyin bir yolu var - ölümdür.

## HƏSRƏTİN DƏ ÖZÜN QƏDƏR ƏZİZMİŞ

Mən qəlbimdə pünhan tutdum ismini,
Hərdən sevinc, hərdən mənə qəm oldun.
Çəkdim könül dəftərimə rəsmini,
Taleyimin şah əsəri sən oldun.

Kədər saldı yollarını qapımdan,
Görə-görə izlərini itirdim.
Qan süzüldü ürəyimin çatından,
Çatammadım, dizlərimi itirdim.

Olmayıbdır boş ilqarım, boş andım,
İnan, könlüm nə incimiş, nə bezmiş.
Mən bir ömrü sənsiz sənlə yaşadım,
Həsrətin də özün qədər əzizmiş.

# SƏNDƏN SƏNİ SEVMƏK ÜÇÜN AYRILDIM

Baxışında min sual var, görürəm,
Gözlərində qurulub dar, görürəm.
İnciyirsən, incimə, yar, görürəm ,
Səndən səni sevmək ücün ayrıldım.

Varlığımda varım-yoxum olmusan,
Həzin laylam, şirin yuxum olmusan,
Müşk - ənbərim, çiçək qoxum olmusan,
Səndən səni sevmək üçün ayrıldım.

Şimşək çaxır, öz içimdə öz ahım,
Bax belədir müxtəsəri izahım,
Yoxdur sənin, yoxdur mənim günahım,
Səndən səni sevmək ücün ayrıldım.

Mən dağ yarıb, qaya çapdım sən adlı
Köksüm üstə qala yapdım sən adlı.
Yaşamağa həyat tapdım sən adlı,
Səndən səni sevmək ücün ayrıldım.

Gülayəyəm, icin-icin ölürəm,
Ağlayırsan, de, nə ücün ölürəm,
Həsrətindən ölmək ücün ölürəm,
Səndən səni sevmək ücün ayrıldım.

# GÖZLƏRİN

Ağı gündüzümdür, qarası gecəm,
Min naxış toxuyub xana gözlərin.
Qulam qulluğunda, yol vermir keçəm,
Gətirib canımı cana gözlərin.

Açdı gizlin-gizlin xanimanımı,
Qarət eylədilər din-imanımı,
Razıyam, alsınlar mənim canımı,
Yenə susayıbdır qana gözlərin.

Çəkdim cəfasını, nə səfa umdum,
Nə dərman istədim, nə şəfa umdum,
Sənin gözlərindən mən vəfa umdum,
Yalvardım baxmasın yana gözlərin.

Gülayə, günləri sana say kimi,
Dolsun dərya kimi, axsın çay kimi,
Haqqın dərgahında doğan Ay kimi
Tapşırsın ömrümü sona gözlərin.

# DƏRDİMİN

Könülə

Saz ilə de, sözlə desən dil yanar,
Atəşində kül olarsan dərdimin.
Dindirməsən sarı simi, ay Könül,
Biləmməsən dərdi nədir dərdimin.

Bil, köhlənməz naşı əldə sim əsər,
Şanə barmaqları, gülüm, simə sər.
Saz üstündə yazacaqdır sim əsər,
Tarixlərdə nişanı var dərdimin.

Haqqın göylərində süzə bilməsən
Kədər zəncirini üzə bilməzsən.
Qəvvassam desən də, üzə bilməzsən,
Qərq olarsan dəryasında dərdimin.

Gülayəyəm, sən ey konül simsarı,
Düz gülləri pərdə üstə, sim sarı.
Bu çöhrəmnən rəng alıbdır sim sarı,
Dərdi nə bir, dərdi nə beş, dərdi min.

# NİYƏ NÖMRƏSİNƏ ZƏNG ÇATMIR...

Hər dəfə etdiyim zənglərə zərif bir qız səsi ilə cavab gəlirdi: “Bu nömrəyə zəng çatmır. Telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir. Xahiş edilir, bir az sonra zəng edəsiniz”

Barı özün söylə, a bədxəbər qız,
Niyə nömrəsinə zəng çatmır onun?
Dərdin dəryasında qalmışam yalqız,
Niyə nömrəsinə zəng çatmır onun?

Bilirdim aldığı nömrələr nəhsdi,
O gündən tufanlar sərasər əsdi,
Məndən qizlətdiyin, sən Allah, bəsdi,
Niyə nömrəsinə zəng çatmır onun?

Əl boyda telefon əlimi əydi,
Həsrətin qəm yükü belimi əydi.
Yoxsa rüzigarın yelimi əydi -
Niyə nömrəsinə zəng çatmır onun?

Dözəmmirəm, üzdü məni intizar,
Nə “səbr eylə”, nə də “döz” deyənim var.
Demirmi yolumu gözləyənim var,
Niyə nömrəsinə zəng çatmır onun?

## QAYTAR

Uçdu can əlimdən, can ilə getdi,
Bu sevdan könlümü sərgərdan etdi,
Axtardım, tapmadım bir ömür bitdi,
Sən tapsan yolumu, izimi qaytar,
Sən Allah, özümə özümü qaytar.

Nakəslər çalxayıb qan dəryasını,
Saldılar könlümün hər an yasını,
Neylərəm əğyarın zər-zibasını?
Ucuz kətanımı, bezimi qaytar,
Sən Allah, özümə özümü qaytar.

Nə mən öldüm, nə də hicran bitmədi,
Zaman zindan oldu, illər ötmədi,
Səni unutmağa gücüm yetmədi,
Sən mənə o səbri, dözümü qaytar,
Sən Allah, özümə özümü qaytar.

Günəş istəmirəm, ay istəmirəm,
Dərya istəmirəm, çay istəmirəm,
Vallah, səndən özgə pay istəmirəm,
Eşqin ocağına közümü qaytar,
Sən Allah, özümə özümü qaytar.

Həsrətin sazını çaldığın gündən,
Gözümdə tor gəzir, saçlarımda dən.
Ya yerdə peyda ol, ya da en göydən,
Mənə söz vermişdin, sözümü qaytar,
Sən Allah, özümə özümü qaytar.

Gülayəyəm, könlüm haqqın aşiqi,
Gəzmədim aləmdə yar - yaraşığı,
De, nəyimə gərək dünya işığı?
Səni görmək üçün gözümü qaytar,
Sən Allah, özümə özümü qaytar.

# SƏNSİZLİYİN GƏLİRMİŞ

Gözlə dedin, dedin “gözlə, gələcəm”,
Qara yollar ayağına sərilmiş.
Mən səni gözlədim bir ömür boyu,
Səni deyib... sənsizliyin gəlirmiş.

Həsrət könlüm sevincimə sədd çəkib,
Gecə-gündüz ürəyimi dəlirmiş.
Gözlərimdə yollar döndü yumağa,
Bilmədim ki, sənsizliyin gəlirmiş.

Çökdü duman qəfil, dağı qar aldı,
Bu xəbəri sanki cahan bilirmiş.
Əkdim, gümanımın tağı qaraldı,
Sənsizlikdən sənsizliyin gəlirmiş.

Bir bülbülün naləsini dinlədim,
Qanadları qan içində gərilmiş.
O nəğmənin deyim adı beləydi,
Səndən sonra sənsizliyin gəlirmiş.

Söylədiyim çox qorxulu nağıldı,
Bu nə dəhşət, bu nə təlaş, nə təşviş.
Məhvərindən çıxdı, dünya dağıldı,
Dünya boyda sənsizliyin gəlirmiş.

## HARDASAN?

Hardayam?
Hardasan? - hardan bilim mən,
Mən kimdən soruşum, harda arayım?
Bircə xəbərindən dikəlsin yenə
Qəhrindən yıxılan könül sarayım.

Yolunu gözlədim bir ömür boyu,
Hamının gedəni gəldi, gəlmədin.
Sığınıb köksümə sirr ömür boyu,
Cismimi ox kimi dəldi, gəlmədin.

Sənsiz gözlərimi nəm yırğaladı,
Yuxumu gözümdən aldı yarımçıq.
Sənsiz beşiyimi qəm yırğaladı,
Sənsiz laylalarım qaldı yarımçıq.

Dünya məhvərindən qopdu, dağıldı,
Başladı könlümdə fəlakət sənsiz.
Bu necə əfsanə, necə nağıldı -
Səninlə başladı, qurtardı sənsiz.

Qoymadım bircə an mənsiz qalasan,
Səni deyə-deyə hər gecə-gündüz.
Mən səni bircə an mənsiz qoymadım,
Sən məni ömürlük saxladın sənsiz.

Ayrı düşdük ayrılığın üzündən,
Yollarında hicran gülü bitirdim.
İtkin düşə-düşə sənsizliyində
Səni axtarırdım, səni itirdim.

Başımın üstündə qanad saxlayıb
İllərin dumanı, çəni, hardasan?
Sənin həsrətinin əlindən tutub,
Səni axtarıram, səni, hardasan?

Sənsiz açılmayan sabahı sənə
Yer ilə göndərdim, göndərdim göylə.
Minnətə göndərdim Allahı sənə,
Gəl, Allah eşqinə, hardasan, söylə!

# GƏTİRDİM

Mən dözə bilməzdim sənsiz bircə an,
Səni ürəyimə büküb gətirdim.

Çapıb köksüm ilə hicran dağını,
Tilsimli daşları söküb gətirdim.

Günəşsən, havamsan, torpaqsan, həm su,
Varlığın özümə köçüb, gətirdim.

Min rəngə boylanıb eşqin tablosu,
Rəsmini könlümə çəkib gətirdim.

Sevib də mən səni Allaha qədər,
Aləmi özümə rəqib gətirdim.

# GÜNƏŞƏ BAX, GÖZLƏRİMİZ QOVUŞSUN

Bir qismətdir, belə yazıb yaradan,
Baxışınla zülmətləri yara dan,
Yaralıyam, ölməmiş bu yaradan,
"Can" dedim ki, sözlərimiz qovuşsun.

Zaman zindan olub, ötəsi deyil,
Bu hicran azalıb bitəsi deyil,
Əllərim əlinə yetəsi deyil,
Kərəm kimi közlərimiz qovuşsun.

Qəm nəğməsi qoşdu hicran dənizi,
Sahilini açdı hicran dənizi,
Gözlərimdə daşdı hicran dənizi,
Özlədim ki, özlərimiz qovuşsun.

Şəhriyarım yar demədi yetənə,
Laylay dedi nakam ölüb itənə,
Əlləri uzalı qaldı Vətənə,
Yetişmədik dizlərimiz qovuşsun.

İntizarda can Arazın suları,
Gözlərimdə qan Arazın suları,
Durulmayır xan Arazın suları,
Ya Rəbb, həsrət üzlərimiz qovuşsun.

Güman qapım, and yerimdir o göylər,
Həm möcüzəm, həm sirrimdir o göylər,
Səcdəgahım, həm pirimdir o göylər,
Günəşə bax, gözlərimiz qovuşsun.

Gülayəyəm, qəm çölündə dolaşdım,
Zaman-zaman dərə keçib, dağ aşdım,
İzin üstə dizin-dizin yol açdım,
Dedim, bəlkə izlərimiz qovuşsun.

# DEMƏYİN

Çiynimdə haqq-nahaq yazan mələklər,
Mənim günahımı yara deməyin.
Əqlimi başımdan aldı küləklər,
Yaman yerdə düşdüm tora, deməyin.

Mən arzu öldürdüm, güman yandırdım,
Mən ümid itirdim, iman yandırdım.
Könül yaraladım, inam yandırdım,
Xatalıyam, üzüm qara, deməyin.

Becərib-əkdiyim əzablar mənə,
Önündə çökdüyüm əzablar mənə,
Bəs edər çəkdiyim əzablar mənə,
Çəkilirəm dardan-dara, deməyin.

Qoy yaşasın yaman addan xəbərsiz,
Qoy yaşasın alov oddan xəbərsiz.
Qoy yaşasın acı daddan xəbərsiz,
Duysa olar bağrı para, deməyin.

Gülayəyəm, tövbə evim talandı,
Çilikləndi şüşə könlüm - yar andı.
Yaşadığım ömür deyil, yalandı,
Baş götürüb qaçım hara, deməyin.

# GÖZLƏRİNƏ DENƏN MƏNƏ BAXMASIN

Demirəm ki, inciyəsən, incimə,
Göz dikiblər sevincimə, incimə.
O gözlərin yiyəsisən, incimə,
Gözlərinə denən mənə baxmasın.

Taleyimi qədəm-qədəm gəziblər,
Gündə min yol ürəyimi üzüblər,
Ağlamışam, gülə-gülə süzüblər,
Gözlərinə denən mənə baxmasın.

Qəm qəm doğub, mən almışam bəlasın,
Deməmişəm, bəla, üzül, bəla, sın,
Çox çəkmişəm o gözlərin bəlasın,
Gözlərinə denən mənə baxmasın.

Yağdırmasın yağış - nə var görmürsə,
O baxışlar yaxşı nə var görmürsə,
Hər baxanda yaxşı nə var görmürsə
Gözlərinə denən mənə baxmasın.

Asar məni gözlər dardan, qorxuram,
Zülmətində boğular dan, qorxuram,
Ölüm haqdı, nahaqlardan qorxuram,
Gözlərinə denən mənə baxmasın.

Şimşək çaxar, çiliklənər şüşəsi,
Duymaz məni, donar, qalar nəşəsi,
Ömrü boyu ev yıxmaqdı peşəsi,
Gözlərinə denən mənə baxmasın.

An içində neçə anlar gizlənib,
Dardan asıb, neçə anlar gizlənib,
Qarasında qara qanlar gizlənib,
Gözlərinə denən mənə baxmasın.

Axşamını, sabahını tanımaz,
Savabını, günahını tanımaz,
Allahını, vallahını tanımaz,
Gözlərinə denən mənə baxmasın.

Ay Gülayə, «dayan gendə» deyərsən,
Nə ay, nə il, dönüb gündə deyərsən.
Sən olsan yerimə, sən də deyərsən,
Gözlərinə denən mənə baxmasın.

# MƏNİM KİMİ GÖRÜM YUXUN DAĞILSIN

Gül içində gülə-gülə yatan yar,
Bələnmişəm oda - külə, yatan yar,
Yandığımı bilə-bilə yatan yar,
Can evimi dedin yaxın, dağılsın,
Mənim kimi, görüm, yuxun dağılsın.

Buza dönən qəlbimi gəl oda sər,
Yarı odda, yarı suda yu da sər,
Yazdı keçdi sinəm üstə od əsər,
Çəkdin yayı, atdın oxun, dağılsın,
Mənim kimi, görüm, yuxun dağılsın.

Gəl, gözümün qəm yuxusun yaxala,
Göz yağındı, gözlərinə yax, ala,
Gözlərimlə gözlərini yaxala,
Qoy qapına gələn axın dağılsın,
Mənim kimi, görüm, yuxun dağılsın.

Gecə doğur, balasını yırğala,
Özün bələ, balasını yırğala,
Öz balanın bəlasını yırğala,
Gör necədir, çək də ahın dağılsın,
Mənim kimi görüm yuxun dağılsın.

Duyar məni yaraları qanayan,
Qəlbim kimi sən də qana, sən də yan.
Bax halıma, qına məni qınayan,
Qarğamaram, varın - yoxun dağılsın,
Mənim kimi görüm yuxun dağılsın.

Yatan bilər yuxu nədi, göz nədi,
Yanan bilər alov nədi, köz nədi,
Yandı canım, dayan nədi, döz nədi,
Azdan azın, çoxdan çoxun dağılsın.
Mənim kimi görüm yuxun dağılsın.

Gülayəyəm, əldən alar əl məni,
Çək göylərin yaxasından ilməni,
Gecələrə gəlin apar, gəl məni,
Oyna xonçan, oyna şaxın dağılsın,
Mənim kimi görüm yuxun dağılsın.

# QƏLBİMİ

Yuxum ərşə çıxıb yenə, ay ana,
Bu zülmət gecələr sıxır qəlbimi.
Sən sığal çəkərdin, layla çalardın,
Qəmlərin qan əli sıxır qəlbimi.

Saldın dağa-daşa atəş içində,
Alov ud, od yaşa atəş içində,
Dünyam başdan-başa atəş içində,
Yandırır, ay ana, yaxır qəlbimi.

Həyat zindan oldu hər bir anında,
Dolandım zamanın burulğanında,
Sevdirdib özünü, döndü sonunda
Daşlardan-daşlara çaxır qəlbimi.

Sənsizlikdə ayım, ilim yaralı,
Susdu laylam, oldu dilim yaralı,
Boylanır üzümə ölüm yaralı,
Alacaqdı əzəl-axır qəlbimi.

# MƏN DEYİLDİM MƏNƏ QƏDƏR OLAN MƏN



# MƏN KİMƏM?!

Kimliyim dünyanın döş cibindədir,
Qaya cibindədir, daş cibindədir,
Bəzən dolu, bəzən boş cibindədir,
İstədim öyrənəm, biləm mən kiməm?!

Hərdən abad oldum, hərdən tarimar,
İçimdə tufandır, çölümdə bahar.
Özümün özümə bir sualım var:
Alovam, atəşəm, küləm, mən kiməm?!

Gözümə süzülən lal gecələri,
Yorğanı ay-ulduz, al gecələri,
Dindirə bilmədim lal gecələri,
Hansı səmtdən əsən yeləm, mən kiməm?!

Dindirdim, şənlik də, büsat da susdu,
Vaxtı döyəcləyən saat da susdu.
Suallar önündə həyat da susdu,
Susmayan tufanam, seləm, mən kiməm?!

Tutub divarlardan kor sual gəzir.
Əzəldən mənimlə sirr sual gəzir,
Min bir sual gəzir, min sual gəzir,
Tarixəm, əsirəm, iləm, mən kiməm?!

Neçə dastan, neçə əsər yazmısan,
Neçə dövran, neçə tarix yazmısan,
Neçə tale, neçə qismət yazmısan,
Kitabam, dəftərəm, qələm, mən kiməm?!

Səpilim torpağa, yenidən gəlim,
Bitsin ömrüm üstə yeni dən, gəlim.
Ölüb-ölüb gedim, yenidən gəlim,
Yalanam, gerçəyəm, biləm, mən kiməm?!

Dəryada batmadım, odda yanmadım,
Tufanda, çovğunda, qarda donmadım,
Hər bir əzabına dözdüm, sınmadım,
Çətin ki, usanam, öləm, mən kiməm?!

Qürurum əyilməz, elə bərkəm mən,
Görməyən gözlərə elə görkəm mən,
Böyük keçmişim var, elə türkəm mən -
Vətənəm, torpağam, eləm, mən kiməm?!

Gülayə, kim geyib söz əbasını,
Qurubdur əlləri haqq binasını?
Yazıb taleyimin əlifbasını,
Şeirəm, nəğməyəm, diləm, mən kiməm?!

# MƏN

Yunis Əmrənin "Mən" şerinə...

Məndən mənə bir yol gəlib mən adlı,
Məndən mənə bir yol gəlib sən adlı,
Məndən mənə bir yol gəlib min adlı,
Bir yol gəlib, min bir adlı, min adlı,
Mən eyləyib mənliyimdə məni mən.

Mən deyildim mənə qədər olan mən,
Məni duyan, məni anan mənəm, mən.
"Külli-aləm, külli-bəşər mənəm, mən".
Nə mən deyim, nə də kimsə mənəm, mən.
Mən eyləyib mənliyimdə məni mən.

Bağışladı məni mənə düzü sirr,
Bağışladı məni mənə sözü sirr,
Atəşi sirr, alovu sirr, közü sirr,
Sirr içində başdan - başa özü sirr,
Mən eyləyib mənliyimdə məni mən.

Görmək olmaz gendən baxsan içəri,
Sirr divardan, o sirr təndən içəri,
Ay Gülayə, iman dindən içəri,
Bir mən yaşar, o mən məndən içəri.
Mən eyləyib mənliyimdə məni mən.

# TANRIMIN RƏSMİNİ ÇƏKİR QƏLƏMİM

Gəlsin kamil olan, yozsun yuxumu,
Ömrümə - günümə yazsın yuxumu.
Hər an gözlərimdən assın yuxumu,
Tanrımın rəsmini çəkir qələmim.

Sualı, nöqtəsi bir aləm olub,
Hər sözü, kəlməsi bir aləm olub,
Hər kiçik zərrəsi bir aləm olub,
Tanrımın rəsmini çəkir qələmim.

Zənn elə astarı üzə çevirib,
Yıxıb dərd odasın, düzə çevirib,
İlahi sevgimi sözə çevirib,
Tanrımın rəsmini çəkir qələmim.

Geydiyi libası qırmızıdandı,
Rəng görüb, rəngini qırmızı dandı.
Mübarək naxışı qırmızıdandı,
Tanrımın rəsmini çəkir qələmim.

Nəfsini dəfn edib dərinə belə,
Sevinib cüt düşən zərinə belə,
Daş atıb şeytanın şərinə belə,
Tanrımın rəsmini çəkir qələmim.

Ömrümdə-günümdə hər anım olub,
Çıxmışam seyrinə, seyranım olub,
Heyran olduğumdan, heyranım olub,
Tanrımın rəsmini çəkir qələmim.

Yerdə haqq qapısın bəndə bağlayır,
Harayım misranı bəndə bağlayır,
Çəkib göylər məni, bəndə bağlayır,
Tanrımın rəsmini çəkir qələmim.

Gözlər görə-görə gözə görünməz,
Görər könül gözü, gözə görünməz,
Geyib sirr donunu gözə görünməz,
Tanrımın rəsmini çəkir qələmim.

Söykəyib başını səbr daşına,
Söyləyir sirrini can sirdaşına,
Qəmli bir aşiqin məzar daşına
Tanrımın rəsmini çəkir qələmim.

"Ol!" - dedi, təcəlli tapdı kainat,
"Ol!" - dedi, var oldu ölüm və həyat,
Tanrının təbindən tapıbdı nicat,
Tanrımın rəsmini çəkir qələmim.

# MƏN BU KİTABA KÖÇMÜŞƏM

Bir köç başlayıbdı haçandan bəri,
Bu nə köçdür — köçən bilir... köçhaköç...
Gözümdən yuxular qaçandan bəri
Köçüm gedib, köçüm gəlir... köçhaköç...
Mən bu kitaba köçmüşəm.

Bu da ruh beşiyim, bu da ruh odam,
Mülküm, xanımanım, təndə tənimdir.
Sakini olmağa necə də şadam,
Bu kitab vətənim, həmvətənimdir —
Mən bu kitaba köçmüşəm.

Hər an gəlib məni məndən almağa,
Təb sevgili yarım, təb nigahımdı.
Məni məndən sonra yada salmağa
Bu kitab yeganə ümidgahımdı —
Mən bu kitaba köçmüşəm.

Mənim əzəl andım, mənim son andım,
Mənim mən olduğum o andan gəlib.
İlahi eşqinə bu etiqadla
Gəlib də, imandan, inamdan gəlib —
Mən bu kitaba köçmüşəm.

Kamala yetmişəm, kama yetmişəm
Ömür möhlətimdə düz ilqarımla.
Önündə baş əyib, səcdə etmişəm,
Öz söz Allahıma etiramımla –
Mən bu kitaba köçmüşəm.

Könlümün rəsmi var hər bir varaqda,
Baxmışam özümə, özüm çəkmişəm.
Ümid göyərtmişəm ümid tağımda,
Şəkil əvəzinə dözüm çəkmişəm –
Mən bu kitaba köçmüşəm.

Ömür əmanətdi, bilirsən özün,
Təzə geyinməyi dünya xoşlayır.
Keçən belə keçdi, tanış ol, canım,
İndi də bu kitab ömrüm başlayır –
Mən bu kitaba köçmüşəm.

Səndən gəlib, səndən keçib, Gülayə,
O ömür də sənsən, bu ömür də sən...
Soruşsalar səni səndən, Gülayə,
"Başlanıbdı kitab ömrün" deyərsən.
Mən bu kitaba köçmüşəm.

# QALMAYIB

Soruşursan: “söylə, hanı?”
Sormayaydın kaş, qalmayıb...
Ömrün-günün bircə anı
Xatirəmdə xoş qalmayıb.

Karvan keçdi, köç dağıldı,
Arzularım puç, dağıldı,
Ağıl getdi, huş dağıldı,
Daha məndə baş qalmayıb.

Köksüm dərya, çağlamışam,
Qar yağıb, buz bağlamışam.
O qədər ki, ağlamışam,
Gözlərimdə yaş qalmayıb.

Xatırla sən, an adları,
Varaqlarda qan adları.
Sınıb düşüb qanadları,
Göy üzündə quş qalmayıb.

Saya bilsən say yaşımı,
Tufanlı, qarlı qışımı.
Gülayəyəm, mən başımı
Döymədiyim daş qalmayıb.

# MƏNİ AYRILIĞIN ƏLİNDƏ QOYMA

Bu ağlar könlümün yaman günüdür,
Demirəm nə aman, nə ah eşqinə.
Bircə aman eylə, aman günüdür,
Səni and verirəm Allah eşqinə,
Məni ayrılığın əlində qoyma.

Bu sevda mülkündə qəm yaşamışam,
Böyüdüb qoynumda balasını mən.
Min kərə ölmüşəm, qəm yaşamışam,
Görmüşəm həsrətin bəlasını mən -
Məni ayrılığın əlində qoyma.

Yaxşı səni, yaman səni qınayar,
Səni deyə-deyə sənsiz ölürəm.
Sən zamanı, zaman səni qınayar,
Ölürəm hər gecə, gündüz ölürəm,
Məni ayrılığın əlində qoyma.

Ölümə, zülümə, dara gedirsən,
Qopar əllərindən, qopar, sevdiyim.
Bilmirəm, bilmirəm hara gedirsən?
Məni də özünlə apar, sevgilim -
Məni ayrılığın əlində qoyma.

Gəl apar özünlə öz qurbanını,
Quruda qoymazlar qurbanı belə.
Özün öz əlinlə üz qurbanını,
Sənsizlik nə demək, sən bilə-bilə,
Məni ayrılığın əlində qoyma.

Keçib tufanlarda bu eşqin yolu,
Bilmirəm nahaqdır, bilmirəm haqdır.
Nə qədər ayrılıq yaşamışam gör,
Dilim gəlməz sənə deyəm günahdır,
Məni ayrılığın əlində qoyma.

Göstər mənə, göstər bilim hökmünü,
İstəyirsən çəkdir məni dara, yar.
Zindan əzabını, ölüm hökmünü
Razıyam, ver mənə hər nə zülüm var,
Məni ayrılığın əlində qoyma.

# ZAMANIN ZAMANA EHTİYACI VAR



## QAYTARA BİLMƏDİM ANA BORCUNU

Əli Kərimin
«Qaytar ana borcunu» şerinə

Var elə döngələr - keçə bilmirəm,
Mən gündüz bilmirəm, gecə bilmirəm.
Demişdin ki, qaytar... necə, bilmirəm,
Qaytara bilmədim ana borcunu.

Şadlığı, sevinci, toyu, büsatı,
Ömrü-günü, başdan-başa həyatı,
Mənə bağışladı bu kainatı,
Qaytara bilmədim ana borcunu.

Nurlu təbəssümlə, nurlu baxışla,
Bəzədi ömrümü min bir naxışla,
Bağışla, İlahi, məni bağışla,
Qaytara bilmədim ana borcunu.

Yardı zülmətləri, yarı dan oldu,
Canımda yarı can, yarı qan oldu,
Can verdi canıma, yarıcan oldu,
Qaytara bilmədim ana borcunu.

Qələmlə qaranı ağa daşıdım,
Gözümdən yaş yağa-yağa daşıdım.
Aranı çiynimdə dağa daşıdım,
Qaytara bilmədim ana borcunu.

Yorğanı səmadan, yastığı yerdən,
Asdım beşiyimi asdığı yerdən.
Öpdüm qədəmini basdığı yerdən,
Qaytara bilmədim ana borcunu.

Gözümdə dağ yandı, yaş yırğalandı,
Qaya parçalandı, daş yırğalandı,
Könlümün beşiyi boş yırğalandı,
Qaytara bilmədim ana borcunu.

Günəşin közünə çəkdim rəsmini,
Göylərin gözünə çəkdim rəsmini,
Dünyanın üzünə çəkdim rəsmini,
Qaytara bilmədim ana borcunu.

Onun bəxşişidir Günəş də, Ay da,
Dərya da, dəniz də, ümman da, çay da.
Anama borcum var bu dünya boyda,
Qaytara bilmədim ana borcunu.

Əhdə yar olardım, qaytara bilsəm,
Bəxtə yar olardım, qaytara bilsəm,
Bəxtiyar olardım qaytara bilsəm,
Qaytara bilmədim ana borcunu.

Gülayə, bax budur çəkilməyən dərd,
Yazılıb həyatın qanunları sərt.
Ölümü öldürmək istədim, fəqət,
Qaytara bilmədim ana borcunu.

# KƏDƏR

Nəfəsində qış gəlibsən,
Gözlərimə yaş gəlibsən,
Ünvanıma xoş gəlibsən,
Gəl, qapımı döyən kədər.

Çox çəkmişəm, cəfalısan,
Demirəm ki, səfalısan,
Sən hamıdan vəfalısan,
Gəl, qapımı döyən kədər.

Sovqatının adı bəlli,
Atəşinin odu bəlli,
Gəlişinin adı bəlli,
Gəl, qapımı döyən kədər.

Mən bələdəm hər oynuna,
Hər an dolandın boynuma,
Göz dikibsən sən qoynuma,
Gəl, qapımı döyən kədər.

Ömrü - günü tən eylədin,
Nə eylədin, sən eylədin,
Axır məni mən eylədin,
Gəl, qapımı döyən kədər.

Nə dincəlib , nə yatmadın,
Hər kəs atdı, sən atmadın.
Vəfalısan, unutmadın,
Gəl, qapımı döyən kədər.

Xəbər verdin hər bir zaman
Sən ölümdən, ayrılıqdan.
Gəl, Gülayən sənə qurban,
Gəl, qapımı döyən kədər.

# GÖRÜN HƏSRƏTİMİN NEÇƏ YAŞI VAR

Baxım gözlərinə, gözümdən oxu,
Dayanım nitqi lal, sözümdən oxu,
Çəkdiyim əzabı üzümdən oxu,
Cavabı özümdə olan suallar,
Görün həsrətimin neçə yaşı var?!

Harda qəm dustağı görsən, o mənəm.
Harda hicran dağı görsən, o mənəm.
Harda xəzan çağı görsən, o mənəm.
Dil açıb ömrümdə neçə qış, bahar,
Görün həsrətimin neçə yaşı var?!

Yaş verdi yüz min il, yaşa söylədi,
Zaman hər sirrimi daşa söylədi.
Tufana söylədi, qışa söylədi,
Göynətdi bağrımı hicran, ahu-zar,
Görün həsrətimin neçə yaşı var?!

Od salıb sinəmə yandır, dedi, yax.
Başımda şimşəyə hökm eylədi, çax.
Çiynimdə kədərin rütbəsinə bax...
Qədər naxışımdır min bir qaşı var,
Görün həsrətimin neçə yaşı var?!

Həyat dərd camında payladı vərəm,
Tilsimli düymələr açılmır, Kərəm!
Yuyam köynəyini, yellərə sərəm,
Ağlayır odun da, külün də zar-zar,
Görün həsrətimin neçə yaşı var?!

Gümanı paslanıb bağlı zəncirdə,
Qalıbdır ayağı-əli kəndirdə,
Gizlədib o vaxtdan odlu təndirdə
Göyçək Fatmaları ögey analar,
Görün həsrətimin neçə yaşı var?!

Yazıldı qaralı, ağlı kitablar,
Vərəqi boyalı, yağlı kitablar.
Ay sirli sətirlər, bağlı kitablar,
Nöqtələr, nidalar, cümlə suallar,
Görün həsrətimin neçə yaşı var?!

Biçdi zəmiləri qan içən yağı,
Söndü Xocalının yanan çırağı,
Suyu qana dönən İsa bulağı,
Dil açdı qayalar, tilsimli daşlar,
Görün həsrətimin neçə yaşı var?!

Çətin çəkdiyimi çəkməyən bilə,
Dedim dərdin ilə dərdimi bələ,
Qan axır Babəkin qolundan hələ.
Hələ Şəhriyarın ruhu intizar,
Görün həsrətimin neçə yaşı var?!

Sevdalı aşiqəm, qolları bağlı,
Qapısı kilidli, yolları bağlı.
Saxlayıb ömürlük qolları bağlı,
Yusif tək zindanda uyuyubdur yar,
Görün həsrətimin neçə yaşı var?!

Gülayə, sönməyən şəmi tap gətir,
Bu qəmlə üzməyə gəmi tap, gətir,
Topla, vur üst-üstə, cəmi tap gətir,
Hələ söyləmədin, etdin ixtisar,
Görün həsrətimin neçə yaşı var?!

# BİR BUDAQ TAPMADIM

Quş yuva qurmağa min budaq tapır,
Mən necə yoxam, de, mən necə varam?
İnsanam, bu boyda kainatda mən
Bir budaq tapmadım - bir yuva quram.

Taleyin şilləsi dəydi üzümə,
Anasız qaldım mən körpəliyimdən.
Kimə "ana" dedim - südü qurudu,
Mənə ana olan olmadı, Vətən.

Əl boyda quş qədər ola bilmədim
Dünyaya sığmayan istəyimlə mən.
Bir yurd həsrətinin qaldım çölündə,
Mən səni içimdə daşıdım, Vətən.

# HALALIN OLSUN

Gözüm arxasınca qalmaz dünyada,
Xoş halım olmusan - xoş halın olsun.
Özündən özünə gedən bu yolda
Nə aldın apardın - halalın olsun.

Ömrümün-günümün hər üzündə sən,
Sevdiyim, zərrəsi bu dünya boyda.
Verdiyin həsrətin əvəzində sən,
Apar hər nəyin var, halalın olsun.

Pərvanə ömrümün əlindən tutub
Mən sənin başına dolandırmışam.
Sənin atəşində elə yanmışam
Elə bilmişəm ki, şam yandırmışam.

Aldın əllərimdən ixtiyarımı,
Həm könül varımı, halalın olsun.
Mənə saxlayıb sən etibarımı,
Məndən nə apardın?.. halalın olsun.

# ÖLSƏM DƏ MƏHŞƏRDƏ QİYAMƏTİMSƏN

Bu necə dəhşətdir, bu necə zülüm,
Bu necə həyatdır, bu necə ölüm?
Qorxulu yuxular görmüşəm, gülüm,
Qasırğam, tufanım, fəlakətimsən.

Atəşdə, alovda yanan Xocalım,
Soyuq nəzərlərdən donan Xocalım,
Bölünən, alınan, sınan Xocalım,
Çox ağır, çox acı həqiqətimsən.

Harayı dünyaya çatmayan şəhər,
Mərmilər səsində yatmayan şəhər,
Ömrü sabahlara çatmayan şəhər,
Zülümüm, əzabım, əsarətimsən...

Kəsilir ömrümün tağı, dolanır,
Qəlbimin başında dağı, dolanır,
Yurd salıb qoynumda yağı, dolanır,
Gileyim-güzarım, şikayətimsən...

Demirəm şərəflə, şanla yazılmış,
Günahsız qurbanla, canla yazılmış,
Tarix kitabıma qanla yazılımış,
Əfsanəm, nağılım, hekayətimsən...

İnləyir bəm sazım, bəmli dastanım,
Ağlaram gözümdə nəmli dastanım,
Yaralı ürəyim, qəmli dastanım,
Qəlbimdə hüzünüm, zəlalətimsən....

Gəzdi taleyimi, gəzdi dəmadəm,
Qılıncı qınında güzgülənən qəm,
Mənimdir bu hüzün, bu dərd, bu matəm,
Özümdən özümə şikayətimsən...

Layla de, Tanrıdan güc alım, layla,
Qisasım qalmasın, bac alım, layla.
Layla deyirəm mən, Xocalım, layla,
Ağımsan, ahımsan, məlalətimsən.

Yaş gəldi yaş üstə, necə yaşadın?,
Gündüz taleyini gecə yaşadın,
Yaşadın ömrünü heçə, yaşadın,
İşgəncəm, ölümüm, rəzalətimsən....

Bil, haqqın rübabın çala bilməsəm,
Sən mənim, mən sənin ola bilməsəm,
Səni yad əllərdən ala bilməsəm,
Ölsəm də məhşərdə qiyamətimsən!

Gülayə, gül açır torpağında qan,
Daha nə ah denən, nə də ki, aman,
İradəm poladdan, var canımda can,
İntiqam, intiqam, ey Azərbaycan!
Dözümüm, taqətim, mətanətimsən!

# QARABAĞDAN QARA XƏBƏR GƏTİRDİ

Tufan qopdu, duman döydü qapımı,
Aman, döydü, yaman döydü qapımı.
Qanlı əllə zaman döydü qapımı,
Qarabağdan qara xəbər gətirdi.

Çaxan ildırımlar, yağan yağışlar,
Nigaran könüllər, qəmli baxışlar,
Həsrət səmasında çırpınan quşlar
Qarabağdan qara xəbər gətirdi.

Atılan mərmilər, qanlı güllələr,
Çiliklәndi dodağımda nəgmələr.
Nələr oldu, nələr oldu, gör nələr,
Qarabağdan qara xəbər gətirdi.

Ağı dedi göy üzündə mələklər,
Qan qoxudu torpağında çiçəklər,
Acı-acı uğuldadı küləklər,
Qarabağdan qara xəbər gətirdi.

...Aman Allah bircə anın içində,
Parçalandı canım canın içində,
Bülbüllərin bağrı qanın içində
Qarabağdan qara xəbər gətirdi.

Səbrimin daşını yardı göz yaşı,
Misra-misra, sətir-sətir göz yaşı.
Yenə qüssə, yenə kədər, göz yaşı
Qarabağdan qara xəbər gətirdi.

Daş bağlayıb zaman susub bağrıma,
Bu ağır möhnəti asıb bağrıma,
Qara köynəyini basıb bağrıma
Qarabağdan qara xəbər gətirdi.

Ürəyi paralı Azərbaycana,
Taleyi qaralı Azərbaycana,
Sinəsi yaralı Azərbaycana
Qarabağdan qara xəbər gətirdi.

Ay Gülayə, nələr oldu gör nələr,
Qəlb evimi yıxa-yıxa qəm mələr,
Atılan mərmilər, qanlı güllələr
Qarabağdan qara xəbər gətirdi

# ONDA DA MƏN İDİM, İNDİ DƏ MƏNƏM

“Dağ dağa rast gəlməz” - el misalı var,
Rast gələr insana insan hər anda.
Bil ki, yanılmayıb aqil babalar,
Gördünmü rastlaşdıq biz də bir anda;
Nə mən özgələşdim, nə özgə mənəm,
Onda da mən idim, indi də mənəm.

Vardı görüşməyə sənlə gümanım,
Xoş oldu əhvalım, xoş oldu halım.
Susma, nə dəyişib, bir dillən, canım?
Onda da mən idim, indi də mənəm.

Ünvanıma çox daş atdı şər əli,
Sapandını boş- boş atdı şər əli,
De, neylədi, nə yaşatdı şər əli?
Onda da mən idim, indi də mənəm.

İnanıb sirr verdim, açan utansın,
Dostu darda qoyub qaçan utansın,
Qırıb qanadımı uçan utansın,
Onda da mən idim, indi də mənəm.

Közərdib könlümdə odu haqq əli,
Atəşi, alovu, odu, haqq əli,
Tutub qollarımdan, budur, haqq əli,
Onda da mən idim, indi də mənəm.

Bərkidim polad tək, üyüşmədim mən,
Şər ilə, şeytanla deyişmədim mən,
Gördünmü, yenə də dəyişmədim mən,
Onda da mən idim, indi də mənəm.

Gülayə, söz ilə qurduğun qala,
Eşqinin rəsmini vurduğun qala,
Dindi zirvəsində durduğun qala:
“Onda da mən idim, indi də mənəm.”

# ÖZÜMÜ ÖZÜMÜN YADIMA SALDIN

Əlin ağrımasın, a şər balası,
İllərlə arxamca daş atmaqdasan.
Səni sükutumda boğdum, öldürdüm,
Sən də ki, hey məni yaşatmaqdasan.

Olmadı aləmdə mənsiz bir günün,
Nə yatdın, nə durdun, nə rahat oldun.
Mənə ağrı çəkdi şikəst vicdanın,
Mənim şadlığıma narahat oldun.

Bu can köynəyimə ləkə vurmaqdan
Gözünün içində qara qalmadı.
Üstümə ah çəkdin, ahın daşlara,
Daş ilə köksündə ara qalmadı.

Bu ağır əzabın sonu görünür,
Nə qədər mən varam qəm çəkəcəksən.
Mənim taleyimdə doğacaq günəş,
Sənsə buludlardan nəm çəkəcəksən.

Cahanda yox elə bir özgə mizan
Çəkələr mən adlı çəkimi mənim.
Yükləyib hər anda çiyinlərinə,
Daşıdın ən ağır yükümü mənim.

Unutdun özünü hər bir anda sən,
Sən mənim mən adlı havamı çaldın.
Yenə minnətdaram, çox sağ ol ki, sən
Özümü özümün yadıma saldın.

## QƏLƏMİNİ GÖZ YAŞIMA BATIR, YAZ

Dərd ortağım, hal əhlisən, halın xoş,
Qəm aşiqi qəm evində yatır, yaz.
Qanım kimi mürəkkəbin qurusa
Qələmini göz yaşıma batır yaz.

Haqq yazarsan yazdığını, ozan yar,
Tanrım olub, taleyimi yazan yar,
Özü yazıb, yazdığını pozan yar,
Qələmini göz yaşıma batır, yaz.

Yatammıram, gecə keçir yarıdan,
Gözlərimdə yarı zülmət, yarı dan,
Məndən gəlib, məni mənlə yarıdan,
Qələmini göz yaşıma batır, yaz.

Gizlətmişəm, dizə çıxıb qarası,
Üzə-üzə üzə çıxıb qarası,
Qara bəxtin gözə çıxıb qarası,
Qələmini göz yaşıma batır, yaz.

Yazı axıb, qışı axıb gözümə,
Kim ağlayıb, yaşı axıb gözümə,
Gözlərini hər an sıxıb gözümə,
Qələmini göz yaşıma batır, yaz.

Qız doğacaq, bax, mən adlı yenidən,
Zaman özü gör bir nələr deyəcək.
Mən olmasam bu dünyada yenidən
Milyon-milyon Gülayələr deyəcək,
Qələmini göz yaşıma batır, yaz.

# ÇAL HAVAMI

Gözləməkdən gözümə ağ düşübdür,
Çal havamı, çal oynayım, a dünya!
Sümüyümə bir oynamaq düşübdür,
Çal havamı, çal oynayım, a dünya!

Beşik, bələk havasını çalmısan,
Qılınc,lələk havasını çalmısan,
Ələk-vələk havasını çalmısan,
Cal havamı, cal oynayım, a dünya!

Bu sevincim, bu kədərim, bu yasım,
Gey əyninə, sənin olsun libasım,
Verdiyini öz qoynundan qoy asım,
Çal havamı, çal oynayım, a dünya!

Əyilməyim, düz oynumu oynayım,
Özüm ilə öz oynumu oynayım,
Dözə bilsən, döz, oynumu oynayım,
Çal havamı, çal oynayım, a dünya!

Küsülüyəm taleyimlə nə vaxtdı,
Mən ağladım gülə-gülə, o baxdı.
Ağlamaram, ağlamağım nahaqdır,
Çal havamı, çal oynayım, a dünya!

Haray çəkdim, xəyal köçüm cəmlənib,
Gözlərimdən nəm çəkib göy, nəmlənib.
Deyən desin, şair qəmdən dəmlənib,
Çal havamı, çal oynayım, a dünya!

Can qapısın qəfil açma, zəngi çal,
Zilə çıxma, ahəngi tut, rəngi çal.
Köklə sazı, sarı simdə "Cəngi" çal,
Çal havamı, çal oynayım, a dünya!

Alışmışam, kül qapıma gəlibdi,
Ağlamışam, sel qapıma gəlibdi,
Minnət üçün el qapıma gəlibdi,
Çal havamı, çal oynayım, a dünya!

Çəkdin yayı, atdın oxun dağılsın,
Qarğamıram, varın-yoxun dağılsın.
Mənim kimi, görüm yuxun dağılsın,
Çal havamı, çal oynayım, a dünya!

Ay Gülayə, demirəm ki, utan, sın,
Belə qismət, belə qədər utansın.
Mən oynayım, bəlkə kədər utansın,
Çal havamı, çal oynayım, a dünya!

# TAPŞIR, AY ANA

Allaha tapşırıb getmisən məni,
Tapşır qurban olum, tapşır, ay ana.
Mənim müşküllərim Allahlıq deyil,
Məni bu dünyaya tapşır, ay ana.

Döymüşəm baş ilə baş qapısını,
Daş dərdim başımdan aşır, ay ana.
Daş ilə döy də sən daş qapısını,
Məni bu dünyaya tapşır, ay ana.

Susuram, sükutda qəm udur məni,
Ağladır, incidir, qorxudur məni.
Həsrət laylasında yatma, dur, məni
Məni bu dünyaya tapşır, ay ana.

Ömrümün üzündə qoy sökülsün dan,
Zülməti göylərdən aşır, ay ana.
Uç da mələk kimi, gəl o dünyadan,
Məni bu dünyaya tapşır, ay ana.

Analı qızlara yar olur dünya,
Baxmayır üzünə anasızların.
Yenidən doğ məni, dünya boyda ya -
Məni bu dünyaya tapşır, ay ana.

Mən elə bir dünya olum dünyada,
Desin tapşır, tapşır desin, ay ana.
Görüm dilə gəlsin, dünya desin ki,
Məni bu dünyaya tapşır, ay ana.

# ALLAHLIQ DEYİL

*Tərsinə firlanır çərxi zamanın,*
*Bir savab eylədim, min günah oldu.*
*Tərsinə firlanır çərxi zamanın,*
*Bir günah eyləyim, min savab olsun.*

***Gülayə***

İstərsən göylərə götür yaz məni,
Sözün yerə düşər, dil haqlıq deyil.
Mən də mən deyiləm, tanımaz məni,
Mənim müşküllərim Allahlıq deyil.

Görmürsə bu qədər ağrı-acımı,
Ehtiyac içində ehtiyacımı.
Edam kötüyümü, dar ağacımı,
Mənim müşküllərim Allahlıq deyil.

Yerdə hesablanır yaşı Allahın,
Müşkülə düşübdür işi Allahın,
Özünə qarışıb başı Allahın,
Mənim müşküllərim Allahlıq deyil.

Özümü tərk edib çox varmışam mən,
Bilməyib yoxmuşam, ya varmışam mən,
Yalvarma, bir ömür yalvarmışam mən,
Mənim müşküllərim Allahlıq deyil.

Keçirib, bərəni bəndə bağlayıb,
Bəndə tutub, bəndi bəndə bağlayıb,
Allahın gözünü bəndə bağlayıb,
Mənim müşküllərim Allahlıq deyil.

Tapşır bəndələrə, tapşır sən məni,
Günahdan keçibdir, günahlıq deyil.
Allaha tapşırıb gedirsən məni,
Mənim müşküllərim Allahlıq deyil.

# ATDIĞIN GÜLLƏLƏR QOY MƏNƏ DƏYSİN

Dayan!
Göylərin qəddini əyərsən, dayan,
Göylərin qəlbinə dəyərsən, dayan.
Qəsdin can almaqsa əgər, sən dayan,
Atdığın güllələr qoy mənə dəysin.

Toxunma tətiyə, hələ nişan al,
Gözünlə gözümü bələ, nişan al,
Alanda köksümü belə nişan al,
Atdığın güllələr qoy mənə dəysin.

Od düşər, beşiklər, bələklər yanar,
Balası qoynunda mələklər yanar,
Yaxarsan, göylərdə fələklər yanar,
Atdığın güllələr qoy mənə dəysin.

Çək mənim ilməmi, söküləcəm mən,
Özüm öz ruhuma əkiləcəm mən,
Göylərin üzünə çəkiləcəm mən,
Atdığın güllələr qoy mənə dəysin.

Yanaram, dünyanın havası yanar,
Ayrılar yer-yerdən, hava, su yanar,
Oynama od ilə, hava, su yanar,
Atdığın güllələr qoy mənə dəysin.

Çəkildim göylərə, bir əlçim oldum,
Bir qərib yuxuyam, döndüm çin oldum,
Göylərin köksündə göyərçin oldum,
Atdığın güllələr qoy mənə dəysin.

Atarsan, göylərdə min aha dəyər,
Batarsan ömürlük günaha, dəyər...
Qorxuram, ötər də, Allaha dəyər,
Atdığın güllələr qoy mənə dəysin.

# TORPAĞIN ÜSTÜNDƏ BİR ŞƏHİD GƏZİR

Torpağin üstündə bir şəhid gəzir,
Tanıyan yox hələ, bilən yox hələ.
Yaşayan görünüb, ölən görünüb,
Belə yaşayan yox, ölən yox belə.

Torpağin üstündə bir şəhid gəzir,
Soruşan yoxdur ki, ay bala kimsən?
Soruşan yoxdur ki, kimlərdənsən sən,
Sən hardan gəlirsən, hara gedirsən?

Torpağin üstündə bir şəhid gəzir,
Alınıb, satılıb, bazarı yoxdur.
Torpağin üstündə bir şəhid gəzir,
Torpağın altında məzarı yoxdur.

Torpağin üstündə bir şəhid gəzir,
Gündə neçə kərə ölüb-dirilib.
Gül açıb köksündə qanlı güllələr,
Ölümün üzünə gülüb, dirilib.

Torpağin üstündə bir şəhid gəzir,
Yuyur qanı ilə torpağı, daşı.
Görən yox şəhidi, şəhid görür ki,
Hərənin özünə qarışıb başı.

Torpağin üstündə bir şəhid gəzir,
Yerin xəbəri yox, çatıbdır göyə.
Torpağin üstündə bir şəhid gəzir,
Bu torpaq məzara dönməsin deyə.

Torpağin üstündə bir şəhid gəzir,
Şəhid arzuların şəhid anıdır.
Gözünüz önündə gəzən şəhidin
Ürəyi Şəhidlər xiyabanıdır.

Torpağin üstündə bir şəhid gəzir,
Gülayə, bu dərdi sinirmir sinəm.
Ölür ürəyimdə bir istək mənim,
Deyə bilmirəm ki, o şəhid mənəm.

# GÜNAHKARI

Dinlə sözlərimi, möhtərəm hakim,
Gətirdim qarşına mən günahkarı.
Gözləyir indi də, de, hansı hökm,
Bu bəxti, iqbalı kəm günahkarı.

Özündə özünü əsir eyləmiş,
Əlləri qoynunda yesir eyləmiş,
Özü də bilməyir, nə sirr eyləmiş,
Azdırmış yolundan çən günahkarı.

Sevda səmasında nə xoş dolanır,
Yarı canı yarda naxoş dolanır,
Halına bax, necə sərxoş dolanır,
Edib eşqin meyi dəm günahkarı.

Dindirmə, itirib başdan başını,
Bilmir baharını, bilmir qışını,
Amandır, soruşma onun yaşını,
Qocalıb bu həsrət, qəm günahkarı.

İxtiyar sənindir, adil hökmdar,
Çəkdin imtahana, ağladı zar-zar.
Qoy çəksin, aləmdə nə cəzası var,
Ya əhv et, gözləri nəm günahkarı.

# ÖLÜM MƏNDƏN ÖTRÜ ÖLÜMƏ GEDİR

Məni eynəyindən keçirib min yol,
Düşüb gözlərimdə selimə gedir.
Məni köynəyindən keçirib min yol
Köksündən min naxış, min ilmə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Oynaya-oynaya oyun qaçırıb,
Oxu göydə süzür, yayın qaçırıb.
Ölümün əmrindən boyun qaçırıb,
Sürünə-sürünə kilimə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Əzabını güzgü tutdu gözümə,
Bir qapı açmadı həyat üzümə.
Dönüb ataşimə, dönüb közümə,
Bələnib oduma külümə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Yaşadım ömrümü bədənsiz baş tək,
Qanadım daşlardan asıldı daş tək.
Oxudum nəğməmi yaralı quş tək,
Qəlbimin naləsi dilimə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Əyninə vaxtımı-anımı geyib,
Bilmirsən əzəli, sonumu geyib.
Mənim libasımı, donumu geyib
Çəkdiyim əzaba, zülümə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Çapdı taleyimdə qəm atı, sevdim,
Qurdu, ömrüm üstə saatı sevdim.
Mən qaçdım ölümdən, həyatı sevdim,
Öldürüb ölümü, ölümə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

Qaranlıq üzündə zəhminə bir bax,
Fələyə fənd olan fəhminə bir bax.
İlahi, ölümün rəhminə bir bax,
Çəkib əllərini telimə gedir,
Ölüm məndən ötrü ölümə gedir.

Gülayə, qəm atdı, qəm tutdu məni,
Ağlatdı, küsdürdü, ovutdu məni.
Mənim sevdiklərim unutdu məni,
Üçümə, qırxıma, ilimə gedir;
Ölüm məndən ötrü ölümə gedir.

# QORXURAM GEDƏSƏN, QAYITMAYASAN

Gəlişin xoş oldu, gedişin yaman,
Hicran sahilində bağrım olar qan,
Ayrılıq dərdinə tapılmaz dərman,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

Yeri sinəm üstdən, yol daşın olum,
Yığ yolu qoynuma, yol daşın olum,
Bir gedək bu yolu, yoldaşın olum,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

Sinəmdə həsrətin vardır yüz dağı,
Deyirsən biri də olsun döz dağı?
Yollar gözlərimə olar köz dağı,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

Torpaq, dəniz, səma, dağ göyərçinə,
Dönüb gözlərimdə, bax, göyərçinə,
Bənzərsən bir anda ağ göyərçinə,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

Qopar köksüm üstdən kökü dünyanın,
Düşər kürəyimə yükü dünyanın,
Qallam arasında iki dünyanın,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

Necə qıydın qüssə, kədər yaşayım?
Sənsiz bir ömürü hədər yaşayım,
Həyatı ölümdən betər yaşayım,
Ay gedən, ay gedən, ay gedən, dayan,
Qorxuram gedəsən, qayıtmayasan!

## MƏNƏ UNUTMAĞI ÖYRƏTMƏDİN SƏN

Bir ümid vermişdin, nə gözəl, nə xoş,
Yoxluğun ağlıma gəlmirdi belə.
Getdin, gedişinlə dünya qaldı boş,
Həsrət acısını sən billə-bilə.
Sevdirdin özünü, bilmirəm nədən,
Mənə unutmağı öyrətmədin sən.

Ağlamaq öyrətdin, gülmək öyrətdin,
Mat qaldı eşqinə sankı kainat.
Yaşamaq öyrətdin, gülmək öyrətdin,
Dondu gözlərimdə bir anda həyat;
Mənə unutmağı öyrətmədin sən.

Od, ataş bürüdü hər yanı qəfil,
Qaya parçalandı, daş yandı, getdi.
Sənsizlik odunda bağrım oldu kül,
Ağlar gözlərimdə yaş yandı, getdi.
Bürüdü dünyanı çiskin, duman, çən,
Mənə unutmağı öyrətmədin sən.

Getdiyin yollara baxmayım deyə,
Ucaltdım sinəmdə sənə söz dağı.
Yerdən üz döndərib boylandım göyə,
Gözlərin gözümə yenə göz dağı.
Hara qaçım, hara gedim söylə sən,
Mənə unutmağı öyrətmədin sən.

Eşqin əlifbasın qan yaddaşıma
Yazmışdın, oxudum sətirbəsətir.
Başım elə dəydi hicran daşına
Daha təsəllilər məni kiritmir.
Nə sirsən, bilmirəm, nə möcüzəsən,
Mənə unutmağı öyrətmədin sən.

Gülayəyəm, müşkül oldu hər işim,
Qeyb oldun gözümdən, çəkildin göyə.
Eşqin göylərində batan günəşim,
Ölüncə mən səni axtarım deyə-
Mənə unutmağı öyrətmədin sən!
Mənə unutmağı öyrətmədin sən!

# FƏLƏK, ƏLLƏRİNİ BU SİNƏMDƏN ÇƏK

Dünyanı ələkdən keçirdin, yetər,
Qılıncı lələkdən kecirdin, yetər,
Külümü küləkdən kecirdin, yetər,
Bir əlin kəfəndir, bir əlin bələk;
Fələk, əllərini bu sinəmdən çək!

Göy üzünə bulud gəlir dan dolur,
Qədəhinə axşam-səhər qan dolur.
Nəfsin şirə çəkir, hər an şan dolur.
Dərib güllərimi hörürsən çələng,
Fələk, əllərini bu sinəmdən çək!

Hər işin uğuru, həm də bədi var,
Hər yolun sərhədi, həm də səddi var,
Yetər, zülümün də bir son həddi var.
Edirsən dünyamı sən ələk -vələk,
Fələk, əllərini bu sinəmdən çək!

Gəlmir əməlindən xoşum, qarışıb,
Atdığın zəhərə aşım qarışıb,
Verdiyin zülümə başım qarışıb.
Əkirsən köksümə dərdləri lək-lək,
Fələk, əllərini bu sinəmdən çək!

Göz yaşımdan Araz adlı çay axdı,
Gümanlarım selə düşdü, ay axdı,
Bir ah çəkdim, göy üzündən ay axdı.
Tutmusan yaxamdan, tutmusan bərk-bərk,
Fələk, əllərini bu sinəmdən çək!

# SƏN ALLAHDAN UTANMADIN BİR KƏRƏ

Dedin, dünya beş günlükdü sərasər,
Günah doğdun, günah biçdin, zəmin boş.
Göz çıxardı... gözdən iraq o əsər,
Rəsminə bax, üzün qara, əlin boş,
Üz-üzəyik, biri mənəm, biri sən...
Mən Allahdan utanıram doğrusu,
Sən Allahdan utanmadın bir kərə.

Kor ocaqda duyğu yanır, hiss yanır,
Göy kitaba yazır göylər gör nəyi.
Xəcalətdən, axan tərdən islanır
Vicdanımın zər naxışı, köynəyi,
Bu misalda biri mənəm, biri sən...
Mən Allahdan utanıram doğrusu,
Sən Allahdan utanmadın bir kərə.

Zaman-zaman hökm eylədin: “yalan yaz”,
Yazdığım and, quyruq andı, yal andı.
Yalan düşün, yalan oxu, yalan yaz,
Yalan dedim, yalan yazdın, yalandı.
Dinlə məni, biri mənəm, biri sən...
Mən Allahdan utanıram doğrusu,
Sən Allahdan utanmadın bir kərə.

Anda verdin Kəbəni sən, piri sən,
Sorulmadı bu günahın sorğusu.
İkiləşdik, biri mənəm, biri sən...
Mən Allahdan utanıram doğrusu,
Sən Allahdan utanmadın bir kərə.

# BİRCƏ ŞAİR QIZI SAXLAYAMMADIN

Bu yerin, bu göyün hakimisən sən,
Bəs nədən sən haqqı haqlayammadın?
Bütün kainatı saxladın, amma,
Bircə şair qızı saxlayammadın.

Gözün görə-görə gözlərə köçdü,
Qurudu göz yaşım, ağlayammadım.
Şeirə, nəğməyə, sözlərə köçdü,
Bircə şair qızı saxlayammadın.

Yaşadı bir ömrü ahla amanla,
Düşmədi dilindən, düşmədi adın.
Barı bu şerini yadında saxla,
Bircə şair qızı saxlayammadın.

Oldu qəm qurbanı, oldu hər anın,
Var oldu, yox oldu - yoxlayammadın.
Qaldı arasında iki dünyanın,
Bircə şair qızı saxlayammadın.

Yer yerə çəkildi, göy də ki, göyə,
Adını özün qoy indi bu andın.
Bir gün zaman sənə deyəcək niyə?
Bircə şair qızı saxlayammadın?

Adında gül bitdi, bəxtində qüssə,
Eşit, yaranışın böyük ustadı...
Sən boyda bir haqqı saxladı, Sənsə
Bircə şair qızı saxlayammadın.

Sonunda anladı, bildi Gülayə,
Kim imiş qohumun, kim imiş yadın.
Sənə gülə-gülə öldü Gülayə.
Bircə şair qızı saxlayammadın.

# BAĞIŞLA

Bilib - bilmədiyim günahlar olub,
Bəzəyim bilmirəm hansı naxışla...
Bilmirəm hansını gətirim dilə,
Deyim ki, hansını mənə bağışla.

Bəzən yalan, bəzən yaman kimiydim,
Qaytar o inamı yenə bağışla.
Zamana sığmayan zaman kimiydim,
Mənim günahımı mənə bağışla.

Hakimi mütləqsən varda-yoxda Sən,
Hər nə var görürsən bircə baxışla.
İlahi, qarşında utanıram mən,
Mənim günahımı mənə bağışla.

Mən tövbə evinə gələnlərdənəm,
Günahsız qul olmaz, kərəmsiz ağa.
Mən öz günahımı bilənlərdənəm,
Mənim günahımı mənə bağışla.

Bütün günahları bağışlayan Sən,
Səndən üz tuturam Sənə, bağışla.
Mən deyildim mənə qədər olan mən,
Mənim günahımı mənə bağışla.

# İÇİNDƏKİLƏR

YOLUN ÇƏTİN, LAKİN ŞƏRƏFLİDİR (Ön söz) ............3
ƏNƏNƏYƏ SADİQLİK ........................................................5

***AÇIQ QOY YUXUNUN QAPILARINI***

AÇIQ QOY YUXUNUN QAPILARINI..............................9
MƏNƏ ƏLİFBANI ÖYRƏT YENİDƏN............................12
GEDİM, YENİDƏN GƏLİM ................................................15
DEYƏN OLMADI Kİ, SON QƏMİN OLSUN .................18
SƏNİ KİRİTMƏYİN MİN BİR YOLU VAR...................20
SONUNCU LƏLƏK ...........................................................22
YALAN SEVMİŞƏM ...........................................................23
QORXURAM SAĞALAM BU XƏSTƏLİKDƏN.............25
YUXUNU SULARA SÖYLƏ, SEVDİYİM (I) ................27
SEVGİDƏN BAŞLADI BU AYRILIQLAR .......................30
ÖLÜM, GÖZLƏRİNDƏ DƏFN EYLƏ MƏNİ...............32
“OXU, BÜLBÜL, BƏLKƏ YARIM OYANA” ....................34
GƏLMİŞƏM Kİ, DEYƏM GƏLMƏYƏCƏYƏM..............36
SƏNİ YAŞAYIRAM, SƏNİ, SEVDİYİM .............................38
YUXUNU SULARA SÖYLƏ, SEVDİYİM (II)...............40
SƏNİ GÖZLƏMİŞƏM BU GÜNƏ QƏDƏR ....................42
QOYNUNA AL MƏNİ, LAYLA DE, LAYLA ..............45
SƏN OLMASAYDIN ...........................................................48
GÖZLƏRİMƏ BAX .............................................................50
VƏTƏN .................................................................................52
DÜNYANIN İŞIĞI ÜZÜNDƏ GEDİB ..............................54
BƏNZƏMİR ..........................................................................56

ÜMİDİMİN ƏLLƏRİ BOŞ QAYIDIB ....................................57
DÜNƏN SEVİNCİMDİN ....................................................59
SƏNSİZ ..................................................................................61
SƏNLƏ SƏNSİZLİYİN ARASINDAYAM ..........................63
SƏNSİZLİYİN BİR YOLU VAR ..........................................65
HƏSRƏTİN DƏ ÖZÜN QƏDƏR ƏZİZMİŞ ....................66
SƏNDƏN SƏNİ SEVMƏK ÜÇÜN AYRILDIM ............67
GÖZLƏRİN ............................................................................69
DƏRDİMİN ............................................................................70
NİYƏ NÖMRƏSİNƏ ZƏNG ÇATMIR... ..........................71
QAYTAR ................................................................................72
SƏNSİZLİYİN GƏLİRMİŞ ..................................................74
HARDASAN? ........................................................................76
GƏTİRDİM ............................................................................78
GÜNƏŞƏ BAX, GÖZLƏRİMİZ QOVUŞSUN ................79
DEMƏYİN ..............................................................................81
GÖZLƏRİNƏ DENƏN MƏNƏ BAXMASIN ................82
MƏNİM KİMİ GÖRÜM YUXUN DAĞILSIN .................84
QƏLBİMİ ..............................................................................86

## *MƏN DEYİLDİM MƏNƏ QƏDƏR OLAN MƏN*

MƏN KİMƏM?! ....................................................................89
MƏN ......................................................................................92
TANRIMIN RƏSMİNİ ÇƏKİR QƏLƏMİM .....................94
MƏN BU KİTABA KÖÇMÜŞƏM ....................................97
QALMAYIB ..........................................................................99
MƏNİ AYRILIĞIN ƏLİNDƏ QOYMA ............................101

***ZAMANIN ZAMANA EHTİYACI VAR***

QAYTARA BİLMƏDİM ANA BORCUNU ...................105
KƏDƏR ...............................................................................108
GÖRÜN HƏSRƏTİMİN NEÇƏ YAŞI VAR...................110
BİR BUDAQ TAPMADIM................................................113
HALALIN OLSUN..............................................................114
ÖLSƏM DƏ MƏHŞƏRDƏ QİYAMƏTİMSƏN ..............115
QARABAĞDAN QARA XƏBƏR GƏTİRDİ ..................118
ONDA DA MƏN İDİM, İNDİ DƏ MƏNƏM...............120
ÖZÜMÜ ÖZÜMÜN YADIMA SALDIN .......................122
QƏLƏMİNİ GÖZ YAŞIMA BATIR, YAZ.....................124
ÇAL HAVAMI ....................................................................126
TAPŞIR, AY ANA ..........................................................129
ALLAHLIQ DEYİL ............................................................131
ATDIĞIN GÜLLƏLƏR QOY MƏNƏ DƏYSİN ............133
TORPAĞIN ÜSTÜNDƏ BİR ŞƏHİD GƏZİR................135
GÜNAHKARI .....................................................................137
ÖLÜM MƏNDƏN ÖTRÜ ÖLÜMƏ GEDİR..................139
QORXURAM GEDƏSƏN, QAYITMAYASAN...............142
MƏNƏ UNUTMAĞI ÖYRƏTMƏDİN SƏN..................144
FƏLƏK, ƏLLƏRİNİ BU SİNƏMDƏN ÇƏK...................146
SƏN ALLAHDAN UTANMADIN BİR KƏRƏ .............148
BİRCƏ ŞAİR QIZI SAXLAYAMMADIN........................150
BAĞIŞLA ..............................................................................152

**Gülayə**

*(Rzayeva Gülayə İsrail qızı)*

Yuxunu sulara söylə...

Texniki redaktor: Aynur ƏSGƏRLİ
Dizayner: Rafael QASIMOV

Çapa imzalanmışdır: 000000.2012
Kağız formatı: 84x90 1/32
H/n həcmi:4,87 ç.v.
Sifariş: 10
Sayı: 1000

Kitab «ADİLOĞLU» nəşriyyatında
nəşrə hazırlanmış və ofset üsulu ilə çap edilmişdir.
Ünvan:Bakı şəh., Şərifzadə küç., 202
Tel.: 433 00 43; (050) 593 27 77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com